**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

# KEYFİYYƏT TƏMİNATI BƏLƏDÇİSİ

***(qaydalar toplusu)***

*ADMİU-nun Elmi Şurasının 24 dekabr 2025-ci il tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmişdir*

**BAKI - 2025**

## MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ 3
**1. Abreviatura**........................................................................ 5
**2. Keyfiyyət təminatı ilə bağlı əsas anlayışlar**........................ 6
**3. Keyfiyyət mədəniyyəti**........................................................ 8
**4. ESG (Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar**........................................................ 14
**5. Daxili keyfiyyət təminatı**.................................................. 26
**6. Xarici keyfiyyət təminatı (XKT)**...................................... 27
**7. Keyfiyyət Təminatı Siyasəti**............................................. 30
**8. Keyfiyyət Təminatı Komissiyasının Əsasnaməsi**............ 50
**9. Keyfiyyət təminatı və strateji planlama departamentinin Əsasnaməsi**.............................................................................. 57

# GİRİŞ

Ali təhsil müəssisələrində keyfiyyət təminatı, təhsilin səmərəli və effektiv həyata keçirilməsi üçün mühüm rol oynayır. Bu proses, təhsil sisteminin hərtərəfli və davamlı inkişafını təmin etmək, tələbələrin məmnuniyyətini artırmaq və müəssisənin nüfuzunu yüksəltmək məqsədini güdür. Keyfiyyət təminatı, yalnız təhsil müəssisələrinin uğuru üçün deyil, eyni zamanda cəmiyyətin inkişafı və gələcək nəsillərin daha keyfiyyətli təhsil alması üçün də vacibdir. Bu səbəbdən, keyfiyyət təminatı sistemlərinin yaradılması və inkişaf etdirilməsi, müasir dövrün təhsilin qarşısına qoyduğu əsas tələblərdəndir.

**Keyfiyyət təminatının mahiyyəti:** Keyfiyyət təminatı təhsil müəssisələrinin tədris və idarəetmə proseslərinin sistematik qiymətləndirilməsi və inkişaf etdirilməsi prosesidir. Bu proses müəssisənin idarəedilməsi, müəllimlərin peşəkarlığı, tədris proqramlarının müasir tələblərə uyğunluğu və infrastruktura dair elementlərin qiymətləndirilməsini əhatə edir. Keyfiyyət təminatı sistemləri müəssisənin müvəffəqiyyətini artırmaq və yüksək standartlara uyğun fəaliyyət göstərməsini təmin etmək üçün zəruri vasitələri təqdim edir.

**Keyfiyyət təminatının əhəmiyyəti:** Keyfiyyət təminatına dair yanaşmalar müasir dövrdə qlobal təhsil mühitinin tələblərinə uyğunlaşmaq və rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyır. Keyfiyyətin yüksəldilməsi tələbələrin akademik göstəriciləri ilə yanaşı, onların sosial, emosional və peşəkar inkişafını da təmin edir. Eyni zamanda, keyfiyyət təminatı sistemi müəssisələr arasında sağlam rəqabəti stimullaşdırır.

**Keyfiyyət təminatı sisteminin əsas məqsədləri:**

1. **Davamlı inkişaf:** Ali təhsil müəssisələrinin hərtərəfli davamlı inkişafını təmin etmək. Bu, proqramların, dərslərin və idarəetmə proseslərinin mütəmadi qiymətləndirilməsini tələb edir.
2. **Tələbə məmnuniyyəti:** Öyrənmə prosesində tələbə məmnuniyyətini artırmaq. Tələbələrin fikirlərini dinləyərək onların ehtiyaclarına uyğunlaşmalıdır.
3. **Peşəkar inkişaf:** Professor-müəllim və izibati heyətin peşəkar inkişafını dəstəkləmək. Bu, müəllimlərin tədris metodlarını və yanaşmalarını təkmilləşdirməyə kömək edir.
4. **Şəffaflıq və hesabatlılıq:** Şəffaflıq və hesabatlılığı təmin etməklə müəssisənin ictimai imicinin gücləndirmək.
5. **Akreditasiya və sertifikatlaşdırma:** Təhsil proqramlarının beynəlxalq standartlara uyğun olmasını təmin etmək.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) missiyası təlimin qabaqcıl innovasiya texnologiyalarını tədris prosesi ilə əlaqələndirməklə mədəniyyət və incəsənət sahələri üzrə respublikada və xaricdə qabaqcıl, müasir dövrün tələblərinə cavab verən rəqabətədavamlı yüksəkixtisaslı peşəkar kadr hazırlığı sistemini formalaşdırmaq.

Vizyonu isə Respublikada mədəniyyət və incəsənət sahələri üzrə kadr hazırlayan ali məktəblər arasında liderliyə nail olmaq, bu sahədə beynəlxalq səviyyəli platformaya çevrilməkdir.

## 1. Abreviatura

**AATM** – Avropa Ali Təhsil Məkanı
**Aİ** – Avropa İttifaqı
**AKTTS** – Avropa Kredit Transferi və Toplanması Sistemi
**ESG** – Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar (ESG – Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area)
**ATM** – ali təhsil müəssisəsi
**AzMKÇ** – Azərbaycan Respublikasının Ömürboyu Təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi
**DKT** – daxili keyfiyyət təminatı
**EFQM** – Avropa Keyfiyyət İdarəetmə Fondu (European Foundation for Quality Management)
**ENQA** – Avropa Ali Təhsil üzrə Keyfiyyət Təminatı Assosiasiyası
**ESU** – Avropa Tələbələr Birliyi
**EUA** – Avropa Universitetlər Assosiasiyası
**EURASHE** – Avropa Ali Təhsil Müəssisələri Assosiasiyası
**ƏFG** – əsas fəaliyyət göstəriciləri
**GZİT** – güclü, zəif tərəflər, imkanlar və təhlükələr
**XKT** – xarici keyfiyyət təminatı
**ISO** – International Organization for Standardization (az. Standardlaşdırma üzrə Beynəlxalq Təşkilat)
**KİS** – Keyfiyyət İdarəedilməsi Sistemi
**KŞ** – Keyfiyyət Şurası
**KT** – keyfiyyət təminatı
**KTK** – Keyfiyyət Təminatı Komissiyası
**KTM** – Keyfiyyət Təminatı Mərkəzi
**KTS** – Keyfiyyət Təminatı Siyasəti

**MQİK** – Müəllimlərin Qiymətləndirilməsi üzrə İdarəetmə Komitəsi
**PDCA** – Plan–Do–Check–Act/Adjust (az. Planlaşdır – icra et – nəzarət et – tədbir gör/təkmilləşdir)
**TKTA** – Təhsildə Keyfiyyət Təminatı Agentliyi

## 2. Keyfiyyət təminatı ilə bağlı əsas anlayışlar

**1. Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Standartlar və Təlimatlar** – ali təhsil müəssisələrinin keyfiyyətinin daxili qiymətləndirilməsini, keyfiyyətin xarici qiymətləndirilməsini və keyfiyyətin xarici agentliklər tərəfindən qiymətləndirilməsini əhatə edən və Boloniya bəyannaməsinin müddəalarına əsasən hazırlanmış standart və təlimatlar toplusu;

**2**. **Dövlət təhsil standartları** – Təhsil sahəsində fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusu;

**3**. **Keyfiyyət** – hər hansı bir obyektin (məhsulun və ya xidmətin) konkret müəyyən olunan və nəzərdə tutulan ehtiyaclara, standartlara cavab vermə qabiliyyətini özündə ehtiva edən xüsusiyyət və əlamətlərin cəmi;

**4**. **Keyfiyyət sənədi** – növbəti 5 (beş) il üçün akkreditasiyaya dair şəhadətnamə ya da akkreditasiyadan imtinaya dair sənəd;

**5. Keyfiyyət təminatı** – təhsilalanların cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa (məşğulluq imkanlarına töfhə verməklə) hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiyaların stimullaşdırılması;

**6. Kompetensiya (səriştə)** – şəxsin hər hansı bir işi düzgün icraetmə bacarığı; hər hansı bir fəaliyyət və ya tədqiqat sahəsində, eləcə də peşəkarlıq və şəxsi inkişaf prosesində bilik, bacarıq, sosial və ya metodoloji qabiliyyətlərdən istifadəetmə bacarığı; müvafiq bilik, bacarıq və yanaşmadan istifadə edərək, fəaliyyəti peşəkar mühitdə tələb olunan standartlara uyğun icraetmə bacarığı;

**7. Tədris planı** – müvafiq təhsil pilləsində tədris olunan fənlərə və dərsdənkənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəd;

**8. Təhsil proqramları** – təlim nəticələrini və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədi;

**9**. **Təlimin nəticələri** – təhsilalanın nələri bildiyini, mənimsədiyini və təlim prosesini bitirdikdən sonra nəyi edə biləcəyini göstərən, eləcə də bilik, bacarıq və kompetensiyaları (səriştələri) müəyyən edən göstəricilər;

**10**. **TMİS** – Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi.

**11.** Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil və peşə standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

**12.** Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qa-

biliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.

**13.** Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq qaydada qiymətləndirilir

## 3. Keyfiyyət mədəniyyəti

ATM-lərdə keyfiyyət təminatının yaxşılaşdırılması üçün əsas vasitələrdən biri keyfiyyət mədəniyyətinin formalaşdırılmasıdır. Ali təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin formalaşdırılması onların nüfuzuna və etibarına müsbət təsir göstərir. ATM-lərdə keyfiyyət mədəniyyəti institusional mədəniyyət olmaqla keyfiyyətin dayanıqlı inkişafını hədəfləyir və bu hədəfin mövcud dəyərlər və gözləntilərlə uzlaşmasını zəruri edir. Keyfiyyət mədəniyyətinə mədəni və psixoloji elementlər, eləcə də struktur və inzibati proseslər aiddir.

Keyfiyyət mədəniyyəti aşağıdakıları əhatə edir:

- işçilər arasında "təhsil keyfiyyəti" konsepsiyası üzrə vahid tərifin və təhsil keyfiyyəti probleminə vahid yanaşmanın formalaşması;
- hər bir işçi üçün təhsil keyfiyyətinin mahiyyəti və iş yerində yüksək keyfiyyəti əldə etmək tələbinin vacibliyinin mənimsənilməsi;
- struktur bölmələr üzrə yüksək keyfiyyət – keyfiyyətin necə idarə ediləcəyi və bu prosesin mexanizminin tərifinə dair tam təsəvvürün yaradılması

Keyfiyyət mədəniyyəti ali təhsil müəssisəsinin dəyərlərə əsaslanan təşkilati mədəniyyətinin önəmli hissəsidir. Keyfiyyət mədəniyyətinin formalaşdırılması və saxlanılması uzunmüddətli uğur baxımından önəmlidir və ali təhsil müəssisələrinin sistem, struktur və siyasətlərində dəyişikliklərin edilməsinin əsasını qoyur. Keyfiyyət mədəniyyəti rektor luqdan akademik heyətədək tutduğu vəzifədən asılı olmayaraq, bütün işçilərə birbaşa təsir göstərən ortaq dəyər və normaların formalaşdırdığı keyfiyyətyönümlü mexanizmdir. Eyni zamanda, keyfiyyət mədəniyyəti müvafiq tərəflərin maraqlarının qarşılanmasını, eləcə də ixtisaslı mütəxəssis hazırlığı və xidmətlərin keyfiyyətinin davamlı olaraq artırılmasını hədəfləyən ortaq dəyər, inam və normalar sistemidir. Keyfiyyət mədəniyyəti ali təhsil müəssisəsinin demək olar ki, hər bir aspektində, o cümlədən tələbə qəbulu, təhsil, tədqiqat və idarəetmədə özünü büruzə verir.

Keyfiyyət təminatı maddi və qeyri-maddi amillərə əsaslanır. Maddi amillər əsasən ali təhsil müəssisənin fəaliyyətləri və digər əyani vəsaitlərlə bağlı sənədlər əsasında müəyyən edilir. Qeyri-maddi amillər korporativ dəyərlər və normalar, idarəetmə, model və ənənələr, təşkilatı davranış və s. amillər vasitəsilə ərsəyə gətirilir. Bu baxımdan, keyfiyyət mədəniyyəti əsasən maraqlı tərəflərin davranışı ilə bağlıdır.

Köklü keyfiyyət mədəniyyətinə malik ali təhsil müəssisələrində “keyfiyyət” bir həyat tərzidir və keyfiyyət prinsipləri təşkilati təcrübə və davranışda əks olunur. Keyfiyyət mədəniyyəti maraqlı tərəflərin məmnunluğunun artırılmasında önəmli amillərdən biri olmaqla, sağlam və səmərəli iş mühitini təmin edir. Bundan əlavə, keyfiyyət mədəniyyəti həmçinin idarəetmə yanaşmasıdır – ali təhsil müəssisəsinə hədəflərinə, məqsədlərinə nail olmağa yardım edir və ona bir neçə prinsip aid ola bilər.

1. Şəffaflıq – Keyfiyyət təminatının bütün mərhələlərində məlumat əldə etmək, bütün uyğun tərəflərin maraqlarını nəzərə alaraq idarəetmə proseslərini yaratmaq.
2. Hesabatlılıq – Bütün maraqlı tərəflərə, o cümlədən ictimaiyyətə ali təhsil müəssisəsinin fəaliyyəti və əldə olunan nəticələrə dair məlumatları mütəmadi çatdırmaq.
3. Ortaq dəyərlərə malik olma – Ali təhsil müəssisəsinin missiyası və strategiyasından irəli gələn dəyərləri strukturun bütün səviyyələrinə çatdırmaq.
4. Dayanıqlı inkişaf – Strategiya tədris proseslərinin dayanıqlı inkişafı və ali təhsil müəssisəsinin göstərdiyi xidmətlərə əsaslanır.
5. İnklüzivlik – Keyfiyyətə dair qərarların verilməsi və fəaliyyətlərin icrası prosesində bütün maraqlı tərəflərə bərabər imkanların yaradılması.
6. Problemlərin faktlara əsasən həll edilməsi və qərarların verilməsi – Etibarlı və müasir metodlar vasitəsilə təhlil edilmiş və toplanılmış məlumatlar əsasında qərarların verilməsi.
7. Qiymətləndirmə və dəyərləndirmə – Keyfiyyət məqsədlərinə nail olmaq üçün müxtəlif metodlar vasitəsilə qiymətləndirmənin aparılması və müvəffəqiyyətli davranışın motivləşdirilməsi.
8. Maraqlı tərəflərin məmnunluğu – Tələbə bacarıqlarının səviyyəsi ilə yanaşı, digər maraqlı tərəflərə göstərilən xidmətlərlə onların məmnunluğu da fəaliyyət göstəricisidir. Ali təhsil müəssisəsinin missiyası maraqlı tərəflərin məmnunluğunu artırmaqdır və təşkilati proseslər maraqlı tərəflərin, xüsusən də benefisiarların məmnunluğunu hədəfləyir.

Keyfiyyətə nəzarət planlaşdırılmış və sistemli tədbirlər əsasında fərdi və kollektiv surətdə əməkdaşların töhfəsinə əsaslana-

raq formalaşır. Keyfiyyət mədəniyyətinin dayanıqlı inkişafına **Şəkil 1-**də təsvir edilmiş müntəzəm olaraq təkrarlanan addımlar daxildir.

Keyfiyyət mədəniyyətinin formalaşdırılması prosesi ilk mərhələdə dəyişiklik ehtiyacının müəyyən edilməsi ilə başlayır. Dəyişiklik tələb olunan daxili və xarici mühit amillərini dəqiqləşdirmək və anlamaq üçün zəruridir. Belə olduğu təqdirdə əməkdaşlar ehtiyacı asanlıqla qavraya və qəbul edə bilərlər. Heyət üzvlərinin dünyagörüşünü dəyişmədən dəyişikliklərə nail olmaq mümkün deyil. Dəyişiklik prosesinə erkən qoşulanların olması ATM daxilində ortaq baxışın formalaşmasına və işçilərin daha çevik ünsiyyət qurmasına xidmət edir.

İkinci mərhələdə mövcud tədris-təşkilati mədəniyyətin əsas xüsusiyyətləri qiymətləndirilir və keyfiyyət konsepsiyasına dair mövcud fikirlər təhlil olunur. Təhlilin məqsədi qorunub saxlanılmalı və yenilənməli olan tədris-təşkilati dəyərləri, inamları və normaları müəyyən etməkdir.

Üçüncü mərhələ ATM-in qiymətləndirmə və strategiyanın həyata keçirilməsi üçün münasib və qeyri-münasib hesab edilən davranış normalarını müəyyən etməkdən ibarətdir. Hədəf, yeni mədəniyyət üçün təşkilati strategiya və dəyərlərə uyğun bir çərçivə yaratmaqdır. Bu, mövcud və hədəflənən (planlaşdırılan) təşkilati mədəniyyət arasında olan boşluqların aradan qaldırılması vasitəsilə yaradıla bilər. Dördüncü mərhələdə hədəflənən keyfiyyət mədəniyyətinin məzmununu müəyyən etdikdən sonra heyət üzvlərini bu barədə aydın və anlaşıqlı şəkildə məlumatlandırmaq lazımdır. Maraqlı tərəflərin keyfiyyət mədəniyyətinin önəmi barədə məlumatlandırılması prosesində mürəkkəb və mücərrəd müzakirələrdən yayınmaq lazımdır.




**Şəkil 1. Keyfiyyət mədəniyyətinin yaradılması və qorunub saxlanılması (Malhi RS, 2013)**

Keyfiyyət mədəniyyətinin formalaşdırılması və təkmilləşdirilməsi, ilk növbədə, ATM rəhbərliyindən nümunəvi davranış tələb edir. Onlar nümunəvi davranışları ilə örnək olmalı və müvafiq tərzdə hərəkət etməlidirlər. ATM rəhbərliyi yeni davranış mədəniyyətinin bütün üzvlər arasında yayılmasında əhəmiyyətli rol oynayır. Yeni davranış mədəniyyətinin işçi heyət arasında təşviq edilməsi yüksək səviyyəli təlimlər tələb edir. Bu prosesə sistemli yanaşma ATM-də dəyişikliklərin daha çox dəstəklənməsinə və daha az müqavimətlə qarşılaşmasına gətirib çıxarar.

Mədəniyyət dəyişikliyinə nail olmaq üçün ATM öz əməkdaşlarının davranış dəyişikliklərini qiymətləndirməli və bu məqsədlə müxtəlif qiymətləndirmə mexanizmlərindən istifadə etməlidir. Ali təhsil müəssisəsində keyfiyyət mədəniyyətinin səmərəliliyini müəyyən etmək məqsədilə mədəniyyət dəyişikliyi mütəmadi olaraq monitorinq edilməli və qiymətləndirilməlidir. Atılan addımlar təşkilati mədəniyyətin formalaşmasına töhfə vermirsə, müvafiq tədbirlər görülməlidir.

# 4. ESG (Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar

**ESG (Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar)**

**Ali Təhsildə Keyfiyyətə Təminat üzrə Avropa Assosiasiyası (ENQA)**
**Avropa Tələbələr Birliyi (ATB)**
**Avropa Universitetlər Assosiasiyası (EUA)**
**Ali Təhsil Müəssisələrinin Avropa Assosiasiyası (EURASHE)**
**Müəllim Həmkarlar İttifaqları Federasiyası (Eİ)**
**Avropa Biznes Təşkilatı (BusinessEurope )**
**Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestri Təşkilatı (EQAR)**

**May 2015**

**Daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar**

***Standartlar*** - *Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə razılaşdırmış və qəbul edilmiş praktikanı müəyyən edir. Bu səbəbdən, ali təhsil müəssisələri tərəfindən göstərilən təhsil xidmətləri həmin standartlara uyğun olmalıdır.*

***Təlimatlar*** - *standartların nə üçün vacib olmasını izah etməklə onların necə həyata keçirilməsini təsvir edir. Həmin standartlar keyfiyyət təminatı ilə məşğul olan şəxslərin müvafiq sahədə keyfiyyət təminatı məsələsini nəzərdən keçirməsi üçün yaxşı bir imkan yaradır. Təlimatların həyata keçirilməsi kontekstdən asılı olaraq fərqli olacaqdır.*

**1.1. Keyfiyyət təminatı siyasəti**

**Standart:**

**Ali təhsil müəssisələri ictimaiyyət üçün açıq olan və onların starteji idarəetməsinin bir hissəsini təşkil edən keyfiyyət təminatı siyasətinə malik olmalıdırlar. Təşkilatın daxilində olan maraqlı tərəflər bu siyasəti müvafiq struktur və proseslər vasitəsi ilə və eyni zamanda təşkilatdan kənarda olan maraqlı tərəfləri də bu prosesə cəlb etməklə həmin siyasəti inkişaf etdirməli və həyata keçirməlidirlər.**

**Təlimatlar:**

Siyasətlər və proseslər ali təhsil müəssisəsinin davamlı inkişafını təmin edən və onun hesabatlılıq sisteminə töhfəsini verən institusional keyfiyyət təminatı sisteminin əsas dayağıdır. Bu, bütün daxili maraqlı tərəflərin keyfiyyətə dair üzərinə məsuliyyət götürməsini və müəssisənin bütün səviyyələrində keyfiyyət təminatında iştirakını təşviq edən keyfiyyət mədəniyyətinin yaradılmasını təşviq edir. Bunu asanlaşdırmaq məqsədilə siyasət rəsmi statusa malikdir və ictimaiyyətə açıqdır.

Keyfiyyət təminatı siyasətləri tədqiqat, təlim və tədris arasında əlaqəni əks etdirdikdə və ali məktəblərin fəaliyyət göstərdikləri milli konteksti, institusional konteksti və strateji yanaşmanı nəzərə aldıqda daha səmərəli olur. Bu siyasət aşağıdakı məsələlərə yardım edir:

• Keyfiyyət təminatı sisteminin təşkili;

• departament, şöbə və digər təşkilatı vahidlər, habelə ali təhsil müəssisələrinin rəhbərliyini, sıravi əməkdaşlarının keyfiyyət təminatına cavabdeh olması;

• Akademik dürüstlük və azadlıqlar, akademik saxtakarlığa qarşı mübarizə;

• Ali məktəbin tələbə və işçilərinə qarşı ayrıseçkiliyin və dözümsüzlüyün olmaması;

• Keyfiyyət təminatı prosesinə xarici maraqlı tərəflərin cəlb olunması.

Bu siyasət bütün müəssisənin iştirakına imkan verən müxtəlif daxili keyfiyyət təminatı prosesləri vasitəsilə tətbiq edilir. Siyasətin həyata keçirilməsi, nəzarət edilməsi və yoxlanılması üsul və vasitələrini ali təhsil müəssisələri müəyyən edir.

Keyfiyyət təminatı siyasəti ali təhsil müəssisələrinin üçüncü tərəfə həvalə etdiyi funksiyalarına da aid edilir.

**1.2. Proqramların tərtib və təsdiq olunması**

**Standart:**

**Ali təhsil müəssisələri proqramlarının tərtib və təsdiq olunmasını nəzərdə tutan proseslərə malik olmalıdır. Proqramlar tərtib olunarkən onların qarşısında qoyulan tapşırıqlar, o cümlədən gözlənilən təlim nəticələri nəzərə alınmalıdır. Proqramda nəzərdə tutulan kvalifikasiya aydın şəkildə müəyyən edilməli və əlaqələndirilməli, ali təhsil üzrə milli kvalifikasiya çərçivəsinə, Avropa ali təhsil məkanının kvalifikasiya çərçivəsinə uyğun olmalıdır.**

**Təlimatlar:**

Təhsil proqramları ali təhsil müəssisələrinin tədris missiyasının əsasında dayanır. Təhsil proqramları tələbələrin fərdi inkişafına təsir edən, onların gələcək karyerasında tələb olunan akademik bilik və bacarıqları, o cümlədən əldə olunmuş biliklərin üçüncü şəxslərə ötürülə bilən bacarıq və vərdişləri aşılayır.

Proqramlar :

• İnstitusional strategiyaya cavab verən və açıq şəkildə nəzərdə tutulmuş təlim nəticələri olan ümumi proqrama uyğun tərtib edilir;

• Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə hazırlanır;

• Xarici təcrübədən və məlumat resurslarından istifadə olunmaqla hazırlanır;

• Avropa Şurasının ali təhsilə dair dörd məqsədini əks etdirir (əhatə dairəsi və konsepsiyalar);

• Tələbələrin təhsildə rahat şəkildə irəliləməsini təmin edir;

• Tələbələrin iş yükünü müəyyənləşdirir ( məsələn ECTS) ;

• müvafiq hallarda tələbələrin ali təhsil müəssisəndən kənarda olan təcrübə fəaliyyətini əhatə etməlidir;

• İnstitusional qaydada formal olaraq təsdiq olunmalıdırlar;

**1.3. Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə**

**Standart:**

**Müəssisələr proqramların tələbələrin tədris prosesinin yaradılmasında fəal iştirakını təşviq edəcək və tələbələrin qiymətləndirilməsinin bu yanaşmanı əks etdirəcək tərzdə keçirilməsini təmin etməlidir.**

**Təlimatlar:**

Tələbələrə yönəldilmiş təhsil və tədris tələbələrin motivasiyanın artırılması, özünü təhlil etməsi və təhsil prosesinə cəlb

olunmasında vacib rol oynayır. Bu səbəbdən, təhsil proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilməlidir.

Tələbələrə yönəldilmiş təhsil və tədrisin həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:

• təhsildə yeni/dəyişən təhsil üsullarının istifadəsinə imkan yaratmaqla tələbələrin müxtəlifliyinə hörmətlə yanaşmaq və onların ehtiyaclarına xidmət etmək;

• müvafiq hallarda tədrisin müxtəlif yollarla həyata keçirilməsini nəzərdən keçirmək və tətbiq etmək;

• müxtəlif pedaqoji metodlardan məharətlə istifadə etmək;

• tədris formalarını və pedaqoji metodları daim qiymətləndirmək və uyğunlaşdırmaq;

• müəllimdən müvafiq təlimat və yardım almaq şərti ilə təhsil alan şəxslərdə müstəqillik hissini stimullaşdırılmaq;

• tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulmasını təşviq etmək;

• tələbələrin şikayətlərinə baxılması üçün müvafiq prosedураları yaratmaq.

Tələbələrin təhsildə əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsinin vacib olması səbəbindən və onların gələcək karyeraları ilə əlaqədar olaraq keyfiyyətin qiymətləndirilməsi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır: Tələbələrin irəliləyişi və gələcək karyeraları üçün qiymətləndirmə önəmli olduğundan, qiymətləndirmə üzrə keyfiyyət təminatı prosesləri aşağıdakıları nəzərə almalıdır:

• bilikləri qiymətləndirən şəxslər mövcud imtahan və yoxlamaların aparılması metodları ilə tanış olmalıdırlar və bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsində onlara yadım göstərilməlidir;

• qiymətləndirmə meyarları və metodları, habelə qiymət verilməsi meyarları qabaqcadan nəşr olunur;

• qiymətləndirmə prosesi tələbələrdən gözlənilən təlim nəticələrini nümayiş etdirməyə imkan verir.

Ehtiyac olduqda, tələbələrə təhsil prosesi üzrə tövsiyələrlə əlaqədar rəy verilir;

• mümkün olan hallarda qiymətləndirmə bir neçə şəxs tərəfindən aparılır;

• qiymətləndirmə qaydalarında yüngülləşdirici hallar nəzərdə tutulur;

• qiymətləndirmə davamlı və obyektiv olmalı, ayrıseçkiliyə yol verilməməli və qabaqcadan elan olunmuş proseduralara uyğun həyata keçirilməlidir;

• qiymətləndirmə ilə bağlı tələbələrin şikayət etməsi üçün formal proseduralar mövcud olmalıdır.

**1.4. Tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiyası**

**Standart:**

**Ali təhsil müəssisələri tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiya qaydalarını qabaqcadan müəyyən və bəyan etməlidir.**

**Təlimatlar:**

Elmi kareyaralarında uğur əldə etmək üçün tələbələrə şəraitin yaradılması və bu sahədə onlara yardım göstərilməsi tələbələrin, ali məktəblərin və ümumilikdə təhsil sisteminin marağındadır. Nəzərdə tutulmuş məqsədlərin tələblərinə cavab verən qəbul, tanınma və buraxılış proseduralarının olması olduqca vacibdir. Tələbələrin ali təhsil müəssisələrinin daxilində və kənarda mobilliyi baxımından bu məsələlərin vacibliyi xüsusi ilə aktualdır.

Ali təhsil müəssisələrinə qəbul proseslərinin və meyarlarının bir qaydada və şəffaf formada həyata keçirilməsi çox əhəmiyyətlidir.

Ali təhsil müəssisələri tələbələrin irəliləyişi haqqında məlumatların toplanılması, yoxlanılması və işlənilməsi üzrə alət və proseslər tətbiq etməlidir.

Ali təhsil kvalifikasiyalarının, təhsil dövrünün və əvvəlki təhsilin tanınması, o cümlədən qeyri-formal və informal təhsilin tanınması təhsil prosesi baxımından, xüsusi ilə mobillik məsələləri baxımından böyük əhəmiyyət kəsb edir. Tanınma proseduraları aşağıdakı şərtlərə əsaslanır:

• tanınma üzrə institusional praktikanın Tanınma üzrə Lissabon Konvensiyasının prinsiplərinə uyğun olması;

• bütün ölkə üzrə tanınmanın təmin edilməsi məqsədilə digər ali təhsil müəssisələri, keyfiyyət təminatı agentlikləri və milli ENİC/NARİC* mərkəzi ilə əməkdaşlıq.

Tələbənin ali təhsil müəssisini bitirməsi ali təhsil prosesinin kulminasiyası hesab olunur. Təhsil müəssisəsini bitirdikdə tələbələrə verilmiş kvalifikasiyanı, o cümlədən təlim nəticələrini, elmi səviyyəni və statusu əks etdirən sənəd verilməlidir.

* ENİC/NARİC – Avropa Məlumat Mərkəzləri Şəbəkəsi /Milli Akademik tanınma üzrə məlumat mərkəzi

**1.5. Müəllim heyəti**

**Standart:**

**Ali təhsil müəssisələrində çalışan müəllimlərin səriştələri həmin ali təhsil müəssisələri tərəfindən təmin olunur. Müəllim heyətinin işə qəbulunda və digər kadr məsələlərində şəffaf və ədalətli qaydalar tətbiq edilməlidir.**

**Təlimatlar:**

Tələbələrin yaxşı təcrübə, bilik, bacarıq və vərdişlərə yiyələnməsində müəllimlərin böyük rolu var. Tələbə heyətinin diversifikasiyası və təlim nəticələrinin önə çəkilməsi tələbəyə yönəldilmiş təhsil və tədrisin olmasını tələb edir. Bu səbəbdən tədris prosesində müəllimin rolu dəyişir (baxın: standart 1.3).

Ali təhsil müəssisələrində çalışan əməkdaşların peşəkarlığına və onların vəzifələrini səmərəli şəkildə yerinə yetirməsini mümkün edən müvafiq mühitin yaradılmasına görə ali təhsil müəssisələri birbaşa məsuliyyət daşıyır. Müvafiq mühitin yaradılması aşağıdakı məsələlərə töhfə verir:

• əməkdaşların işə qəbulu və tədrisin əhəmiyyətini vurğulayan iş şəraiti yaratmaq məqsədilə aydın, şəffaf və ədalətli proseslərin tətbiqi və riayət edilməsi;

• müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi;

• təhsil və tədqiqat işləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi;

• tədrisdə innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadənin həvəsləndirilməsi.

**1.6. Təhsil resursları və tələbələrə dəstək**

**Standart:**

**Təhsil və tədris proseslərinin həyata keçirilməsi üçün ali təhsil müəssisələri müvafiq maliyyə imkanlarına malik olmalıdır. Tələbələrin tədris resurslarına çıxışı təmin olunmalıdır və onlara bu sahədə dəstək verilməlidir.**

**Təlimatlar:**

Tələbələrin ali təhsil müddətində yüksək təcrübəyə yiyələnmələrin təmin edilməsi məqsədi ilə ali təhsil müəssisələri tələbələrin istifadəsi üçün bir sıra tədris resursları təqdim edir. Tədris

resurslarına kitabxana, tədris vasitələri və İT infrastrukturu, habelə tyutor, konsultant və digər məsləhətçilər tərəfindən verilən məsləhət və tövsiyələr daxildir. Tələbələrin mobilliyinin artırılmasında yardımçı xidmətlərin rolu xüsusi ilə əhəmiyyətlidir.

Tədris resursları ayrılarkən, hazırlanarkən və tələbələrin ixtiyarına verilərkən, eləcə də tələbələrə dəstək göstərilərkən, müxtəlif qrup və kateqoriyadan olan tələbələrin (yaşlı tələbələr, qiyabi bölmədə təhsil alan, işləyən və xarici tələbələr, habelə fiziki qüsurlu tələbələr) ehtiyacları, tələbəyə yönəldilmiş təhsil formasına keçid məsələsi, habelə təhsil və tədrisin şəraitdən asılı olaraq tez uyğunlaşan formaları nəzərə alınmalıdır.

İnstitusional kontekstdən asılı olaraq yardımçı fəaliyyət və yardımçı vasitələr müxtəlif yollarla təşkil oluna bilər. Buna baxmayaraq, daxili keyfiyyət təminatı sistemi bütün resursların məqsədəuyğun və əlçatan olmasını təmin etməli və tələbələrin istifadəsi üçün təqdim edilən xidmətlər barədə onları məlumatlandırmalıdır.

Yardımçı xidmətlərin göstərilməsində köməkçi və inzibati heyətin rolu olduqca əhəmiyyətlidir. Bu səbəbdən də həmin əməkdaşlar peşəkar olmalı və biliklərini artırmaq imkanına malik olmalıdırlar.

### 1.7. Məlumatın idarə olunması

**Standart:**

**Ali təhsil müəssisələrinin proqramlarının və digər fəaliyyətlərinin səmərəli şəkildə həyata keçilməsini təmin etmək üçün ehtiyac duyulan məlumatlar əldə olunmalı, təhlil edilməli və istifadə olunmalıdır.**

**Təlimatlar:**

Əsaslandırılmış qərarların qəbul edilməsi, müsbət və mənfi cəhətlərin müəyyən edilməsində dürüst məlumatlara malik ol-

maq olduqca əhəmiyyətlidir. Təhsil proqramları və digər fəaliyyətlər barədə məlumatların toplanması və təhlili ilə bağlı aparılan işlər daxili keyfiyyət təminatı sisteminə aiddir.

Ali təhsil müəssisəsinin formasından və yerinə yetirdiyi vəzifədən asılı olaraq əldə edilməsi tələb olunan məlumatların xarakteri də fərqlənə bilər. Məlumatlar aşağıdakı məsələləri əhatə etməlidir:

- əsas qiymətləndirilmə göstəriciləri;
- tələbə heyəti haqqında qısa məlumat;
- təhsil alan tələbələrin, ali təhsil müəssisəsini uğurla başa vuran və xaric olan tələbələrin sayı;
- tələbələrin təhsil proqramlarından məmnunluğu;
- tədris resursları və tələblərə yardım edilməsi;
- məzunların peşəkar fəaliyyətlərində əldə etdikləri nailiyyətlər.

Məlumatların toplanması müxtəlif yollarla həyata keçirilə bilər. Tələbələrin və işçi heyətin məlumatların toplanması və növbəti addımların planlaşdırılması fəaliyyətinə cəlb olunması olduqca əhəmiyyətlidir.

**1.8. İctimaiyyət üçün məlumat**

**Standart:**

**Ali təhsil müəssisələri fəaliyyətləri, o cümlədən proqramları barədə aydın, dəqiq, obyektiv və son məlumatları nəşr etməlidir. Məlumatlar əlçatarlı olmalıdır.**

**Təlimatlar:**

Ali təhsil müəssisəsi haqqında məlumatlar gələcək və cari tələbələr, məzunlar, digər maraqlı tərəflər və ictimaiyyət üçün faydalıdır.

Bu səbəbdən, ali təhsil müəssisələri fəaliyyətləri, təklif etdikləri proqramlar, seçim meyarları, proqramlardan gözlənilən

təlim nəticələri, proqramların verdikləri kvalifikasiyalar, təhsil, tədris və qiymətləndirmədə istifadə edilən prosedurlar, keçid balları, tələbələr üçün yaradılmış tədris imkanları, işlə təmin olunmuş məzunların sayı ilə bağlı məlumatı ictimaiyyətə təqdim etməlidir.

**1.9. Proqramların daimi monitorinqinin aparılması və vaxtaşırı yoxlanılması**

**Standart:**

**Ali təhsil müəssisələri tədris proqramlarında nəzərdə tutulmuş məqsədlərə nail olmaq, habelə tələbələrin və cəmiyyətin ehtiyaclarını təmin etmək məqsədi ilə proqramların daimi monitorinqi aparılmalı və vaxtaşırı yoxlanılmalıdır. Proqramların yoxlanılmasının nəticəsi kimi həmin proqramlar təkmilləşməlidir. Planlaşdırılan və ya həyata keçirilən hər hansı bir fəaliyyət barədə bütün aidiyyəti tərəflərə məlumat verilməlidir.**

**Təlimatlar:**

Tədris proqramlarının daimi monitorinqinin aparılması, nəzərdən keçirilməsi və yoxlanmasının məqsədi ilə həyata keçirilən tədris prosesinin lazımi qaydada aparılmasının təsdiq edilməsi və tələbələr üçün əlverişli tədris mühitinin yaradılmasıdır.

Buraya aşağıdakı məsələlərin qiymətləndirilməsi daxil edilir:

• aparılmış araşdırmalar nəticəsində tədris edilən proqramın həmin fənn üzrə mövcud olan ən son proqramlara uyğun olmasının təmin edilməsi;

• cəmiyyətin dəyişən ehtiyaclarının müəyyən edilməsi;

• tələbələrin iş yükü, təhsil alması və təhsilini tamamlaması;

• tələbələrin qiymətləndirilməsi üçün istifadə edilən prosedurların səmərəliliyi;

• tələbələrin proqramdan gözlədikləri nəticələr, onların ehtiyacları və proqramdan məmnunluqları;

• tədris mühiti, yardımçı xidmətlər və qeyd olunanların proqramın məqsədlərinə uyğun olması.

Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə proqramlar daima nəzərdən keçirilərək onlara düzəlişlər edilir. Toplanmış məlumatların təhlili aparılır və proqramın müasirliyinin təmin edilməsi üçün müvafiq düzəlişlər edilir. Düzəliş edilmiş proqram ictimaiyyətə təqdim edilir.

### 1.10. Dövri olaraq xarici keyfiyyət təminatı

**Standart:**

**Vaxtaşırı olaraq ali təhsil müəssisələri ESG-yə uyğun olaraq xarici keyfiyyət təminatı vasitəsi ilə yoxlamadan keçməlidir.**

**Təlimatlar:**

Ali təhsil müəssisələrdə daxili keyfiyyət təminatının səmərəliliyi xarici keyfiyyət təminatı zamanı müxtəlif yollarla yoxlanıla bilər və təkmilləşdirmə üçün katalizator rolunu oynaya və müəssisə üçün yeni imkanlar aça bilər. Proses eləcə də ali təhsil müəssisinin fəaliyyətinin keyfiyyəti haqqında ali məktəb və ictimaiyyətə məlumat təqdim edəcək.

Xarici keyfiyyət təminatı məqsədi ilə keçirilən yoxlamalar zamanı ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının tələblərini nəzərə alınmalıdır. Bu səbəbdən, qanunvericilik aktlarının tələbindən asılı olaraq xarici keyfiyyət təminatı sistemi müxtəlif formalarda həyata keçirilə və müxtəlif təşkilati səviyyələrdə (proqram, fakültə və ya institut) aparıla bilər.

Keyfiyyət təminatı davamlı proses olmaqla hər hansı bir rəyin verilməsi, hesabatın tərtib edilməsi və ya ali təhsil müəssisə-

sinin daxilində növbəti proseduranın həyata keçirilməsi ilə yekunlaşmır. Bu səbəbdən, ali təhsil müəssisələri növbəti xarici keyfiyyət təminatı prosesinə hazırlaşarkən keçirilmiş son prosesinin nəticələri nəzərə almalıdırlar.

## 5. Daxili keyfiyyət təminatı

Daxili keyfiyyət təminatı (bundan sonra - DKT) daxili idarəetmənin qiymətləndirilməsi sistemidir, o, təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun təmin olunmasına, ali təhsil müəssisəsində səmərəli və müasir təhsil mühitinin yaradılmasına və onun fəaliyyətinin davamlı inkişafının təmin olunmasına xidmət edir. Daxili keyfiyyət təminatının tərifi mürəkkəbdir və əsasən müəllim, tələbə və institusional (akademik) tədris mühiti arasında qarşılıqlı əlaqələrin nəticəsidir (AST, 2015). Keyfiyyət təminatı sistemi elə bir tədris mühiti təmin etməlidir ki, proqramların məzmunu, biliklərin əldə edilməsi imkanları və resurslar nəzərdə tutulmuş məqsədlərə uyğun olsun (AST, 2015). DKT keyfiyyətin idarə olunmasının institusional mexanizmlərinə aid edilir. Ali təhsildə DKT-nin əsas funksiyası keyfiyyət tsiklinin (PDCA) idarə olunmasıdır, çünki o, ATM-in trifokal funksiyaları (təhsil, tədqiqat və ictimaiyyətə xidmət) və köməkçi infrastrukturu ilə əlaqəlidir. Keyfiyyət tsikli ali təhsil müəssisəsinin səmərəliliyinin planlaşdırılması, fəaliyyəti, qiymətləndirilməsi və təkmilləşdirilməsindən ibarətdir. DKT-nin məqsədlərinə çatmaq üçün ali təhsil müəssisələri müxtəlif Keyfiyyətin İdarəetmə Sistemlərindən (KİS) istifadə edə bilərlər.

Daxili keyfiyyət təminatının ümumi məqsədi əsas fəaliyyətləri nəzarətdə saxlamaq, müəssisəni daim irəli çəkmək və inkişaf etdirməkdir

DKT sistemlərinin hazırlanması zamanı bir neçə əsas şərti nəzərə almaq lazımdır. Bunlar aşağıdakılardır (İUCEA, 2015):

- sistem mümkün olduğu qədər sadə və hər kəs tərəfindən anlaşılan olmalıdır;
- bürokratik proses olmamalıdır;
- rəhbərliyin və işçi heyətinin dəstəyinə malik olmalıdır;
- mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş yanaşmalar arasında düzgün balans olmalıdır;
- səmərəli vasitələrdən istifadə olunmalıdır;
- daxili keyfiyyət təminatı sistemi milli və beynəlxalq inkişafa uyğunlaşdırılmalıdır.

## 6. Xarici keyfiyyət təminatı (XKT)

Keyfiyyət təminatı sistemi yalnız daxili amillərdən ibarət deyil. Xarici keyfiyyət təminatının mövcudluğu ali təhsil müəssisəsinin ictimaiyyət qarşısında hesabatlılığının və xarici perspektivin nəzərə alınmasının təmin edilməsi baxımından önəmlidir. Xarici keyfiyyət təminatı məqsədi ilə adətən akkreditasiya və xarici audit keçirilir. Akkreditasiya mühüm hesabatlılıq vasitəsidir. Onun köməyi ilə ali təhsil müəssisələrinin keyfiyyətini yoxlamaq olar və o, DKT üçün əsasdır. Akkreditasiyanın bir çox tərifləri vardır və ona olan baxışlar müxtəlifdir. Akkreditasiyasının hər kəs tərəfindən qəbul olunmuş ümumi tərifi yoxdur.

Akkreditasiya müəyyən standartların, minimal tələblərin yerinə yetirildiyini göstərən və fəaliyyətlərin qiymətləndirilməsinə əsaslanan rəsmi qərardır. Azərbaycan Respublikasının ak-

kreditasiya qaydalarına əsasən ali təhsil müəssisələrinin akkreditasiyası, onların fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktlara uyğunluğunun yoxlanılması məqsədilə həyata keçirilir və ali təhsil müəssisəsinin statusunu, hər bir ixtisas (proqram) üzrə tələbə sayını və onun fəaliyyətinin növbəti müddətə uzadılmasını müəyyən etmək üçün hüquqi təminat verir.

Son dövrlərdə xarici keyfiyyət təminatı üzrə Azərbaycanda çox əhəmiyyətli addımlar atılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanına əsasən, Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılmış və Agentliyin Nizamnaməsində qurumun fəaliyyət istiqaməti və vəzifəsi kimi, təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi və akkreditasiya məqsədilə təhsil müəssisələrinin qiymətləndirilməsinin təşkil edilməsi müəyyən edilmişdir (493 №li Qərar).

"Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" 2020-ci il 14 dekabr tarixli 493 nömrəli Qərarla yeni redaksiyada təsdiq edilmişdir.

Akkreditasiya Qaydalarına əsasən ali təhsil müəssisələrinin akkreditasiyasının aşağıdakı növləri mövcuddur:

- Təhsil müəssisəsinin institusional akkreditasiyası (bundan sonra – institusional akkreditasiya);
- Təhsil proqramlarının akkreditasiyası (bundan sonra – proqram akkreditasiyası)
- İnstitusional akkreditasiya təhsil müəssisəsinin ümumi fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına, digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, hər bir ixtisas üzrə kadr hazırlığı po-

tensialının, təhsilalanların say həddinin müəyyənləşdirilməsi və müəssisənin fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradır.

- Təhsil proqramının akkreditasiyası qüvvədə olan müvafiq təhsil pillələri üzrə təsnifatlara istinadən təşkil olunaraq, təhsil müəssisələrində tədris edilən təhsil proqramlarının maddi-texniki və tədris bazasını, təhsilverənlərin keyfiyyət göstəricilərini və təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsinin əmək bazarının tələblərinə uyğunluğunu və proqramın icrasını qiymətləndirərək hər bir ixtisas üzrə kadr hazırlığı potensialının və təhsilalanların say həddinin müəyyən olunmasına hüquqi təminat yaradır (Akkreditasiya Qaydaları, 2020).

# 7. Keyfiyyət Təminatı Siyasəti

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**________professor C.E.Mahmudova**

## KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universitetinin Elmi Şurasının**
**_12_ sentyabr 2023-cü il tarixli iclasının**
**___01___№-li protokolu ilə təsdiq edilmişdir**

**Bakı - 2023**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra Universitet) **Keyfiyyət təminatı siyasəti**:

- keyfiyyətin təmin edilməsi və davamlı təkmilləşdirilməsi mədəniyyətinin inkişafı üçün Universitet tərəfindən təsdiq edilmiş ümumi yanaşmaları, əsas prinsipləri və əsas mexanizmləri əks etdirir.
- təhsil xidmətlərinin keyfiyyətinin davamlı və sistemli şəkildə yaxşılaşdırılmasına yönəlmiş tədbirlər məcmusu kimi müəyyən edilir.
- ardıcıl keyfiyyət idarəetmə sistemidir.

Keyfiyyət təminatı təhsilin məzmununun, öyrənmə imkanlarının və maddi-texniki bazanının məqsədə uyğun olduğu mühiti yaratmalıdır. Keyfiyyət siyasəti bir sıra müddəalara əsaslanır:

✓ *Missiya*: Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlərinin qorunması və inkişafı üçün mədəniyyət və incəsənət sahəsində nəzəri və xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə yüksək ixtisaslı kadrların hazırlanması.

✓ *Gələcəyə baxış*: - Yaradıcı kadrların yüksək keyfiyyətli çoxsəviyyəli hazırlanması üçün təhsil proqramlarını həyata keçirən, mədəniyyət, incəsənət və ölkənin kreativ (yaradıcı) sənayesinin inkişafına xidmət edən innovativ təhsil, elmi, yaradıcı və mədəni-maarif klasteri.

Keyfiyyətin təminatı siyasətinin **məqsədi** ADMİU-nun bütün fəaliyyət sahələrində keyfiyyəti təmin etmək, dərin peşə hazırlığına malik, daxili və beynəlxalq əmək bazarlarında rəqabətədavamlı, yaradıcılıq, tədqiqat fəaliyyəti və təlimin tədris prosesinə inteqrasiyasını nəzərdə tutan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bütün maraqlı tərəflərin vəzifə və məsuliyyətlərini müəyyən etməkdir. Universitetdə keyfiyyət mədə-

niyyətini formalaşdırmaq, maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq, tələbəyönümlü tədris prosesini sistemləşdirmək, strukturlararası koordinasiya və hesabatlılığı təmin etmək Keyfiyyətin təminatı siyasətinin məqsədləri sırasındadır. Keyfiyyət təminatı siyasəti və standartları ixtisaslar üzrə tədris, öyrənmə, yaradıcılıq və tədqiqat arasındakı əlaqəni əks etdirir.

Universitetin keyfiyyət təminatı siyasəti ali təhsildə keyfiyyətin təminatına dair beynəlxalq yanaşmalara, o cümlədən Avropa Ali Təhsil Sahəsində Keyfiyyətin Təminatı üzrə Avropa Standartlarının və Təlimatlarının keyfiyyət təminatı tələblərinə, habelə Azərbaycan Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanmış milli təhsil siyasətinə, “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli publik hüquqi şəxsə çevrilməsi haqqında qərarına, bu qərara əlavə olaraq təsdiq edilmiş ADMİU-nun Nizamnaməsinə və s. uyğundur. Bu siyasət Universitetin mövcud Strateji İnkişaf Planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına, fasiləsiz inkişafına yönəlmişdir.

Universitetin keyfiyyət təminatı siyasəti daxili və xarici keyfiyyət təminatı mexanizmlərinə əsaslanır. Daxili keyfiyyət təminatı mexanizmlərinə Universitetin Strateji İnkişaf Planı, kollegial idarəetmə mexanizmi, universitetdaxili sənədlər toplusu, layihə yanaşmaları və s. daxildir. Keyfiyyətin xarici təminatı mexanizmlərinə TKTA-ya fəaliyyət haqqında dövri hesabatların verilməsi, habelə təhsil sahəsində akkreditasiya orqanlarının monitorinqi və akkreditasiyası daxildir.

*Strateji İnkişaf Planı* Universitetin fəaliyyətinin və inkişafının fundamental əsasını təşkil edir və qarşıda duran yeni vəzifələrə uyğun olaraq daim təkmilləşir. Strateji İnkişaf Planı mədəniyyət və incəsənət sahəsində dəyişikliklərə operativ reaksiya verə bilən kadrların peşəkar hazırlığının milli sisteminin müasirləşdirilməsinə yönəlib. "Sənətə aparan yol bizdən keçir" şüarı ilə silahlanmış Universitet tarixən müəyyən edilmiş missiyasının həyata keçirilməsində intellektual platforma kimi çıxış edir. Universitet akademik sərbəstlik, cari təhsil proqramlarının tətbiqi və istifadəsi, tətbiqi tədqiqatların həyata keçirilməsi, sosial məsuliyyət və şəffaflıqla kollegial qərarların qəbulu prinsipinə riayət edir.

Universitet keyfiyyətinin yüksəldilməsi üçün aşağıdakı istiqamətlər üzrə tədris prosesinin mövcud imkan və resurslardan istifadə edir:

**a)** təhsilalanların potensialının və strateji baxış bacarıqlarının inkişafına, tənqidi düşüncənin və sosial məsuliyyətin, dürüstlüyün inkişafına yönəlmiş təhsil proqramlarının hazırlanması;

**b)** mədəniyyət və incəsənət sahəsində kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və yenidən hazırlanması, rəqabət qabiliyyətli səriştə səviyyəsinə zəmanət verən davamlı təhsil sisteminin yaradılması;

**c)** müasir interaktiv iş metodlarına və informasiya texnologiyalarına yiyələnməyə yönəlmiş yeni nəsil müəllim, tədqiqatçı, mədəniyyətin müxtəlif sahələri üzrə yüksək ixtisaslı peşəkar kadrların və mütəxəssislərin formalaşdırılması.

Universitetdə mövcud olan *kollegial idarəetmə modeli* onun fəaliyyətinin səmərəliliyini və keyfiyyətini müəyyən edən əsasdır. Universitetin kollegial idarəetməsi qanunçuluq, şəffaflıq,

hesabatlılıq, inklüzivlik, bərabər hüquq və münasibətlər, kollektiv məsuliyyət, nəticəyönümlü və səmərəlilik prinsiplərinə əsaslanır. Kollegial idarəetmə orqanları Universitetin fəaliyyətinin bütün sahələrinin əhatə olunmasını, tədris, metodik, elmi-tədqiqat, yaradıcı, sosial, maliyyə və təsərrüfat fəaliyyəti məsələləri ilə bağlı qəbul edilən qərarların vaxtında və optimallığını təmin etmək məqsədi ilə qurulmuş kollegial və məsləhət xarakterli idarəetmə strukturlarıdır. Universitetin kollegial orqanlarının əsas məqsədi tədris müəssisənin fəaliyyətinin təkmilləşmə yolu ilə keyfiyyətinin yüksəldilməsidir.

**Keyfiyyət təminatının prinsipləri.** Universitetdə keyfiyyətin təminatı aşağıdakı prinsiplərə əsaslanır:

– keyfiyyətin təminatı üzrə ümumi məsuliyyət Universitetin rəhbərinə həvalə edilir və tədris prosesində iştirak edən struktur bölmələrin rəhbərliyi, inzibati-texniki heyət və tələbələrlə birgə həyata keçirilir. İşin keyfiyyətinə görə hər kəsin şəxsi məsuliyyəti rəhbərliyin, müəllimlərin, işçilərin və digər kateqoriyalı işçilərin məsuliyyət və səlahiyyətlərini dəqiq tənzimləməklə təmin edilir.

– Universitetin rəhbərliyi tədris prosesinin, yaradıcılıq-ifa işlərinin və elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, yeni tədris texnologiyalarının tətbiqi üçün müəllim və əməkdaşların yaradıcı təşəbbüsünü həvəsləndirir.

– kənar maraqlı tərəflər (məzunlar, əmək bazarı nümayəndələri və digər steykholderlər) keyfiyyət təminatının qiymətləndirilməsi və təkmilləşdirilməsinin bir hissəsi olmaqla daim prosesə cəlb olunurlar.

Universitetdə daxili keyfiyyət təminatı sistemi aşağıdakı *prinsiplər* nəzərə alınmaqla formalaşır:

*sistemlilik*: təhsildə keyfiyyətin təminatı müxtəlif fəaliyyət növlərini əks etdirir və təkcə təhsil fəaliyyətinin planlaşdırılması və idarə edilməsi proseslərini deyil, həm də tədrisin keyfiyyətinin qiymətləndirilməsi, təkmilləşdirilməsi və yenilənməsini əhatə edir. Ümumi sistemin elementləri bir-biri ilə əlaqəli olmalı və sistemin daha yüksək təkmilləşdirmə səviyyəsinə keçməsinə imkan verməsi üçün bir-birini tamamlamalıdır.

*hərtərəflilik*: keyfiyyət təminatı sistemi Universitetin fəaliyyətinin bütün aspektlərini əhatə edir və bütün maraqlı tərəflərin (dövlət, cəmiyyət, tələbələr, valideynlər, universitet rəhbərliyi, işəgötürənlər) tələblərinə cavab verir;

*uyğunlaşma*: sistem başa düşülən, rahat və asan həyata keçirilməli, müxtəlif maraqlı tərəflərin irəli sürdüyü yeni tələblərə tez uyğunlaşmalıdır.

Universitet aşağıdakı keyfiyyət təminatı *tədbirlərini* müəyyən edir:

- ✓ strategiya, siyasət və prosedurların vəhdətinin təmin edilməsində, keyfiyyətin təmin edilməsi və təkmilləşdirilməsi proseslərinə bütün maraqlı tərəflərin cəlb edilməsində Universitet rəhbərliyinin aparıcı rolu;
- ✓ bütün maraqlı tərəflərin (dövlət, cəmiyyət, tələbələr, valideynlər, universitet rəhbərliyi, işəgötürənlər) ehtiyac və gözləntilərinin nəzərə alınması, onların keyfiyyətin təmin edilməsi və təkmilləşdirilməsi üzrə fəaliyyətlərdə fəal iştirakı;
- ✓ maraqlı tərəflər üçün şəffaflığın və məlumatların əlçatanlığının təmin edilməsi.
- ✓ akademik dürüstlüyün və azadlığın, korrupsiyanın və ayrıseçkiliyin istənilən formasına dözümsüzlüyün qorunması;

- ✓ keyfiyyət və təlim standartları üçün məsuliyyətin dəqiq müəyyən edilməsi;
- ✓ məlumatların və universitet reallıqlarının hərtərəfli təhlili əsasında idarəetmə qərarlarının qəbul edilməsi;
- ✓ dünya təhsilinin inkişaf tendensiyalarını və Boloniya prosesinin təcrübəsini nəzərə almaqla təhsilin yüksək keyfiyyətinə, kollektivdə keyfiyyət mədəniyyətinin formalaşmasına zəmanət verən müasir idarəetmə sisteminin işlənib hazırlanması;

Keyfiyyətin təminatı və təkmilləşdirilməsi Universitet tərəfindən həyata keçirilən bütün təhsil proqramlarına şamil edilir.

Keyfiyyətin yüksəldilməsinin *əsas istiqamətləri*:

- o Dövlət siyasətinin müasir şərtləri və strateji məqsədlərinə uyğun olaraq Universitetin missiyası və inkişaf baxışının təkmilləşməsi;
- o tədqiqat və tədris arasında əlaqələrin gücləndirilməsi, yeni metod və yanaşmaların tətbiqi;
- o magistratura səviyyəsində tədris planları və fənn proqramlarının müasir tələblərə və əmək bazarına uyğun hazırlanması üçün effektiv mexanizm və prosedurların tətbiqi;
- o tələbələrin təlimin keyfiyyətindən məmnunluğunun monitorinqi və qiymətləndirilməsi üçün effektiv sistemin işlənib hazırlanması;
- o yüksək keyfiyyətli pedaqoji kadrların işə götürülməsi mexanizmlərinin işlənib hazırlanması;
- o müəllimlərin səriştəsinin qiymətləndirilmə mexanizmlərinin işlənib hazırlanması;
- o təlim və tədris (informasiya, metodiki və s.) resurslarının təkmilləşdirilməsi;
- o Universitetin informasiya sisteminin təkmilləşdirilməsi.

**Təhsil proqramlarının tərtib və təsdiq olunması.** Universitetin təhsil proqramları ixtisaslı kadrların fəaliyyətində kifayət qədər yüksək peşəkarlığın və şəffaflığın təmin edilməsi üçün təkmilləşdirilmiş peşəkar təlim metodlarının tətbiqi yolu ilə müasir və səmərəli mütəxəssislərin hazırlanması kimi strateji hədəfin həyata keçirilməsinə yönəlib. Universitet yeni təlim proqramları hazırlayarkən ixtisaslı kadrların peşəkarlığının artırılmasına diqqət yetirməklə, səriştə əsaslı yanaşma, nəticə və təcrübə yönümlü təlimin təmin edilməsi şərtlərini müəyyən edir. Peşəkar, sosial-etik, təşkilati-kommunikativ, iqtisadi və hüquqi səriştələr Universitet tələbələri arasında tənqidi və strateji təfəkkürün inkişafına, yüksək keyfiyyətli qərarların qəbulu, səmərəli planlaşdırma və proqnozlaşdırma, dəyişikliklərə uyğunlaşma bacarığına, generasiya, təhlil, innovativ yanaşmaların həyata keçirilməsi bacarıqlarına və s. yönəlib.

İxtisaslar üzrə təhsil proqramları yeni nəsil peşəkar mütəxəssislərin hazırlanmasına yönəlib. Məqsədyönlü kadr hazırlığı, tələbə kontingentinin spesifikliyi Universitetin potensial işəgötürənlərlə sıx əməkdaşlığı qəbul planı, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə tələbə seçimi, tədris planlarının və fənn proqramlarının hazırlanmasına yönəlir.

Tədris planları və fənn proqramlarının həyata keçirilməsi əsas maraqlı tərəflərlə – professor-müəllim heyəti, tələbələr, məzunlar və steykholderlərlə razılaşdırılır, eləcə də müvafiq proqramlar üzrə ən yaxşı beynəlxalq təcrübə öyrənilir.

Təhsil proqramlarının çevikliyini, fənlərin və müəllimlərin seçim azadlığını, fərdi planların tərtibində müstəqilliyi təmin etmək üçün tələbələrə fənn seçimi imkanı verilir. Seçmə fənlər siyahısına peşəkarlığın artırılmasına və yeni şəxsi səriştələrə yiyələnməyə imkan verən komponentlər daxildir.

Universitetin Keyfiyyət təminatı və strateji planlama Departamenti hər semestrin sonunda tələbələrin təhsil proqramlarının keyfiyyətindən məmnunluq səviyyəsini müəyyən etmək üçün sorğular keçirir, sorğunun nəticələri təhlil və təhsil proqramlarının keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı qərarların qəbul edilməsi üçün Keyfiyyət təminatı Komissiyasına təqdim olunur.

**Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə.**

- Universitetin tədris proqramlarında tələbəyönümlü təlim təmin edilir, çevik təlim metodları vasitəsilə tələbələrin motivasiyası və tədris prosesinə cəlb edilməsinə şərait yaradılır;
- təlim nəticələrinin qiymətləndirilməsində ardıcıllıq və obyektivliyi təmin edilir;
- tələbələr üçün aydın məqsədlər və gözlənilən təlim nəticələri daxil edilir;
- proaktiv tədris metodları tətbiq olunur;
- tələbələrə şəxsiyyətyönümlü yanaşma təmin edilir;
- fərdi təlim trayektoriyaları formalaşdırılır;
- tələbələrin müstəqil işinin rolu gücləndirilir;
- tədrisdə tədqiqat yanaşmalarından istifadə olunur və s.

Sərbəst işin məqsədi öz profili üzrə fundamental biliklərə, peşəkar bacarıqlara və vərdişlərə yiyələnməkdir:

✓ dərslərdə əldə edilmiş nəzəri biliklərin və praktiki bacarıqların sistemləşdirilməsi, möhkəmləndirilməsi və dərinləşdirilməsi;
✓ idrak qabiliyyətlərinin və fəaliyyətinin, yaradıcı təşəbbüsün, məsuliyyətin və təşkilatçılığın inkişafı;
✓ müstəqil təfəkkürün formalaşması, özünü təkmilləşdirmə və özünü reallaşdırma;
✓ tədqiqat bacarıqları və yaradıcılıq qabiliyyətlərinin inkişafı.

Tələbələrin sərbəst işinə tədris, metodiki və təşkilati dəstək təmin olunur: cari semestrdə yerinə yetiriləcək işlər haqqında vaxtında məlumatlandırılır, elektron kitabxana sistemindən istifadə etmək imkanı yaradılır və s. Professor-müəllim heyəti sərbəst işlərin məzmununu formalaşdırır, planlaşdırır və yerinə yetirilməsinə nəzarət edir. Sərbəst işlər şifahi, yazılı və prezentasiya formalarında qəbul edilir.

*Biliyin qiymətləndirilməsi.* Bütün növ tədris tapşırıqları üzrə tələbələrin təhsil nailiyyətləri kredit texnologiyasının tələblərinə uyğun olaraq biliyin qiymətləndirilməsi üçün bal-reytinq (hərf) sistemindən istifadə etməklə qiymətləndirilir. Universitetdə tələbələrin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsi ixtisaslar üzrə müəyyən edilmiş meyarlar əsasında aparılır və fənnin sillabusunda göstərilir.

Qiymətləndirmə prosesi dəqiq və təkrarlanan, aydın və ardıcıl olub, etibarlılığı müvafiq prosedurlarla təmin edilir və akademik dürüstlük prinsipləri gözlənilir. Hər bir tapşırıq üçün qiymətləndirmə meyarları haqqında tələbələr vaxtında, başa düşülən, dəqiq və şəffaf məlumatlarla təmin edilir və bu məlumat bütün maraqlı tərəflər üçün əlçatan olur.

Qiymətləndirmə proqramın və fənlərin məqsədlərini və təlim nəticələrini təmin edir.

İmtahan sessiyaları zamanı şəffaflığın təmin edilməsi, tələbələrə qarşı ayrı-seçkiliyin qarşısının alınması, vahid tələblərə əməl olunması və mübahisəli məsələlərin həlli məqsədilə Apellyasiya komissiyaları yaradılır. Rektorun əmri ilə tərkibi təsdiq edilmiş Apellyasiya komissiyasına ən təcrübəli və ixtisaslı elmi-pedaqoji kadrlar daxil olur.

**Təhsilalanların qəbulu, təhsil alması, tanınması və attestasiyası (sertifikatlaşdırma).** Tələbə və magistrantların univer-

sitetə qəbulu ali təhsil müəssisələrinə tələbə və magistrantların qəbulu qaydalarını müəyyən edən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları" və 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları"na müvafiq olaraq III və V ixtisas qrupları üzrə dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir. Azərbaycanda ilk dəfə olaraq mədəniyyət və incəsənət sahəsində biznesin təşkili və idarə edilməsi işində bilik və təcrübələr əldə etməyə imkan verən MBA proqramı Universitetdə təşkil edilir. Xüsusi qabiliyyət tələb edən təsviri sənət, musiqi sənəti, teatr və kino sənəti istiqamətlərinin müvafiq ixtisasları üzrə qabiliyyət imtahanlarının keçirilməsi məqsədilə komissiyaların tərkibi təsdiq edilir. Universitet seçim proseslərində şəffaflıq prinsipinə əməl olunmasını təmin edir.

Universitet təlim nəticələrinin monitorinqi, tələbələrin irəliləyişi haqqında məlumatların toplanılması, yoxlanılması və işlənilməsi üzrə prosedurlara riayət edir. Təhsil prosesi, xüsusi ilə mobillik məsələləri baxımından böyük əhəmiyyət kəsb edən ali təhsil kvalifikasiyalarının, təhsil dövrünün və əvvəlki təhsilin tanınması üçün prosedurları ardıcıl şəkildə tətbiq edir. Bütün ölkə üzrə tanınmanın təmin edilməsi digər ali təhsil müəssisələri, TKTA və milli ENİC/NARİC mərkəzi ilə əməkdaşlığa əsaslanır.

Universiteti bitirdikdə tələbə və magistrantlara verilmiş kvalifikasiyanı, o cümlədən təlim nəticələrini, elmi səviyyəni və statusu əks etdirən ali təhsil haqqında dövlət sənədi – diplomlar verilir. "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və on-

ların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli, 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na müvafiq olaraq bakalavr və magistratura proqramları üzrə məzunlara diplomlar (adi və fərqlənmə) verilir. Diplom və diploma əlavə Azərbaycan Respublikasının dövlət dilində tərtib edilir, məzunun yazılı müraciəti ilə ingilis dilində də tərtib edilə bilər.

*Akademik mobillik və ikili diplom proqramları.* Hazırda 40-dan çox ölkənin 120 ali məktəbi ilə fəal əməkdaşlıq edən Universitetin xarici əlaqələr sahəsindəki fəaliyyətində mədəniyyət, incəsənət, elm və təhsil məsələləri prioritet istiqamətlər kimi dəyərləndirilir. Universitetdə 2019-cu ildən etibarən ikili diplom təhsil proqramı həyata keçirilir. ADMİU ilə Kurmanqazı adına Qazax Milli Konservatoriyası arasında 2019-cu ildə imzalanmış Əməkdaşlıq haqqında Müqavilə və Qazax Dövlət Pedaqoji Qızlar Universiteti arasında 2019-cu ildə imzalanmış qarşılıqlı anlaşma haqqında Memorandum əsasında bakalavriat səviyyəsində, T.K.Jurqenov adına Qazaxıstan Milli İncəsənət Akademiyası arasında 2022-ci ildə imzalanmış Əməkdaşlıq haqqında Müqavilə və ARUCAD arasında 2023-cü ildə imzalanmış Anlaşma Protokolu əsasında magistratura səviyyəsində ikili diplom təhsili və akademik mobillik çərçivəsində təhsil almaq imkanı əldə edilmişdir. Akademik mobillik və ikili diplom proqramlarını tamamlamaq üçün tələblər, habelə kredit köçürmə prosedurları və maliyyələşdirmə tələbləri Universitetin Akademik siyasəti ilə tənzimlənir.

**Professor-müəllim heyəti.** Universitetdə tədris prosesinin keyfiyyətini təmin edən əsas amillərdən biri də professor-müəl-

lim heyətidir. Bu baxımdan Universitetdə insan kapitalının inkişafına xüsusi diqqət yetirilir:

**a)** professor-müəllim heyətinin keyfiyyətinə və onların səmərəli işləməsi üçün əlverişli şəraitin yaradılmasına məsuliyyət daşıyır;

**b)** tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulmasını təşviq edir;

**c)** professor-müəllim heyətini inkişaf etdirmək məqsədilə kadrların idarə edilməsinə vahid yanaşmalar və metodlar hazırlanıb;

**d)** işçilərin işə qəbulu, vəzifəyə təyin edilməsi, vakant vəzifələrin tutulması, savadlı və bacarıqlı şəxslərin seçilməsi prinsipinə (meritokratiya) uyğun irəliləyiş və vəzifədən azad edilməsi üçün aydın, şəffaf və obyektiv meyarlar hazırlanıb.

**e)** müəllim heyətinin karyera yüksəlişi və peşəkar inkişafı üçün imkanlar yaradır, ixtisasartırma planının həyata keçirilməsini təmin edir.

**f)** motivasiyanın yüksəldilməsinə yönəlmiş və əsas fəaliyyət göstəricilərini özündə əks etdirən yeni KPI (Key Performance Indicators) sisteminə keçid istiqamətində işlər aparılır.

**g)** mütəxəssislərin işə cəlb edilməsində balanslı yanaşmanı təmin etmək məqsədilə vakant professor-müəllim heyəti vəzifələrinə seçim həm müsabiqə, həm də müqavilə əsasında aparılır.

Pedaqoji kadrların müsabiqə yolu ilə qəbulu prosesi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 401 saylı 07.08.1996 cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə" və Azərbaycan Respublikası Təhsil

Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"-na uyğun olaraq həyata keçirilir.

**Təhsil resursları və tələbə dəstək sistemi.** Universitet resursların və tələbə dəstək xidmətlərinin kifayət qədər, əlçatan və təhsil məqsədləri üçün uyğun olmasını təmin edir, tədris resurslarını bölüşdürərkən, planlaşdırarkən və təmin edərkən müxtəlif tələbə qruplarının (yaşlı, işləyən, əcnəbi, fiziki qüsurlu) ehtiyaclarını nəzərə alır. Universitet tələbələrin istifadəsi üçün bir sıra tədris resursları təqdim edir: kitabxana, tədris vasitələri və İT infrastrukturu, habelə tyutor xidməti. Daxili keyfiyyət təminatı sistemi isə bütün resursların məqsədəuyğun və əlçatan olmasını təmin edərək, tələbələrin istifadəsi üçün təqdim edilən bütün xidmətlər barədə onları məlumatlandırır.

Universitetin professor-müəllim heyətinin, magistrantların və doktorantların tədris, elmi-tədqiqat, metodiki və yaradıcılıq fəaliyyətini təmin edən ən mühüm struktur bölməsi Kitabxana-İnformasiya Mərkəzidir. Mərkəz fəaliyyətində "Təhsil haqqında" (19 iyun 2009), "Kitabxana işi haqqında" (29 dekabr 1998) Azərbaycan Respublikasının qanunlarını, Nazirlər Kabinetinin "Ali təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" qərarını (05 iyul 2016), ADMİU-nun Nizamnaməsini (12 avqust 2022), ADMİU Kitabxana-İnformasiya Mərkəzinin Əsasnaməsini (26 dekabr 2022) və kitabxana işi üzrə digər normativ hüquqi sənədləri rəhbər tutur.

Kitab fondunun və elektron tədris resurslarının keyfiyyətli formalaşdırılmasına böyük diqqət yetirilir. Kitabxana-İnformasiya Mərkəzinin əsas iş istiqamətlərini "İRBİS-64" Avtomatlaş-

dırılmış Kitabxana-İnformasiya Sistemi vasitəsilə universitetin tələbə, magistrant, doktorant, dissertant, professor-müəllim heyəti və digər əməkdaşlarına göstərilən kitabxana-informasiya xidmətinin modernləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və elmin analitik-informasiya təminatının optimallaşdırılması təşkil edir.

Mədəniyyət və incəsənətin müxtəlif istiqamətlərini (teatr, kino, televiziya, rəssamlıq, musiqi və humanitar sahələr) özündə əks etdirən Mərkəzin çoxşaxəli və zəngin ixtisaslaşmış fondunun ümumi həcmi 50000 nüsxədən çox sənəd-informasiya resursundan (Azərbaycan və xarici dillərdə kitab, jurnal, kataloq, avtoreferat, dissertasiya, not, fotoalbom, izomaterial, elektron nəşr və qəzet materiallarından) ibarət olub, elektron kitabxana sistemlərinə daxil olan tədris və tədris ədəbiyyatına çıxış imkanına da malikdir. Mərkəz lisenziyalı elektron resurslardan istifadəyə xüsusi diqqət yetirilir.

Kitabxana-informasiya xidmətləri abunə əsasında, rahat iş şəraiti olan oxu zalında, Mərkəzin bütün resurslarından, kompüterlərdən, açıq "Wi-Fi" zonalardan istifadəni təmin etməklə həyata keçirilir. Hər il "oriyentasiya həftəsi" çərçivəsində kitabxanadan istifadə qaydaları ilə tanışlıq, elektron kataloqdan istifadə, Mərkəzin mövcud informasiya xidmətləri ilə bağlı məlumatlar verilir.

Tələbələr və bütövlükdə Universitetin fəaliyyəti üçün İnformasiya kommunikasiya texnologiyaları və texniki xidmət şöbəsinin fəaliyyəti az əhəmiyyət kəsb etmir. Şöbə üç strateji istiqamətdə fəaliyyət göstərir:

**1)** Yeni informasiya texnologiyalarının tətbiqi: təhsilin və inzibati fəaliyyətin rəqəmsallaşdırılması üçün yeni proqram məhsullarının və internet resurslarının hazırlanması və tətbiqi;

serverlərin tədris və inzibati fəaliyyətə tətbiq edilən yeni texnologiyalara uyğunlaşdırılması və təkmilləşdirilməsi; informasiya təhlükəsizliyini, məlumatların toplanması və saxlanmasını təmin etmək üçün yeni həllərin tətbiqi.

**2)** Mövcud informasiya texnologiyalarının dəstəklənməsi: korporativ şəbəkənin idarə edilməsi; mərkəzləşdirilmiş texniki dəstəyin göstərilməsi; internet resurslarının modernləşdirilməsi və idarə edilməsi; informasiya təhlükəsizliyinin təmin edilməsi.

**3)** Kompüter, server və ofis avadanlıqlarının, işlərin və xidmətlərin satınalmaları.

Təhsilin elektron idarə edilməsi, imtahan prosesinin yüksək səviyyədə, mövcud standartlara uyğun aparılması və ona nəzarətin həyata keçirilməsi məqsədiləTədrisin elektron idarə edilməsi və imtahanların təşkili şöbəsi yaradılmışdır. Şöbə tədris prosesinin elektron idarə edilməsi və biliyin qiymətləndirməsi sistemində çevikliyi, obyektivliyi, şəffaflığı təmin edir.

Tələbə dəstək sistemində tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edən, onların akademik maraqlarını qoruyan və müdafiə edən, zəruri məsləhət və tövsiyələr verən, əlilliyi olan tələbələrə xüsusi diqqət ilə yanaşan tyutorların rolu xüsusi əhəmiyyət kəsb edir.

**Məlumatın idarə olunması.** Universitet təhsil proqramlarının və digər fəaliyyətlərin səmərəli idarə edilməsi üçün müvafiq zəruri məlumatların toplanması, təhlili və istifadəsi prosedurlarını müəyyən etmişdir. Keyfiyyətə təminat sistemini qiymətləndirmək üçün müxtəlif üsullarla məlumatların toplanması və təhlili təşkil olunur: məlumat sisteminin işlənib hazırlanması, tətbiqi və istifadəsi; Universitetin təhsil xidmətlərindən maraqlı tərəflərin (steykholderlərin) tələblərinin müəyyən edilməsi və məmnunluğunun qiymətləndirilməsi və s.

Tələbə kontingenti haqqında statistik və arayış hesabatlarının formalaşdırılması, təhsil nailiyyətlərinin qiymətləndirilməsinin nəticələri, kontingentin hərəkəti üzrə sifarişlərin formalaşdırılması, məşğulluq prosesinin təhlili və monitorinqinin aparılması, məzunların məşğulluğu və karyera yüksəlişi ilə bağlı məlumat bazasının formalaşdırılması Tədris şöbəsi və onun nəzdində yaradılmış Ömurboyu təhsil, karyera və məzunlarala iş bölməsi tərəfindən həyata keçirilir.

Universitet təhsilin keyfiyyətinin təmin edilməsi ilə bağlı idarəetmənin müxtəlif səviyyələri arasında müvafiq məlumat mübadiləsi proseslərinin tətbiqini təmin edir: vebsaytın və onun informasiya sistemlərinin saxlanması, korporativ e-poçtun idarə edilməsi, maraqlı tərəflərə tələb olunan məlumatların təqdim edilməsi və s. Məlumatın strukturu, həcmi, mənbəyi, tezliyi, dürüstlüyü ilə bağlı tələblər daxili normalar ilə müəyyən edilir. İnformasiyanın təhlükəsizliyi istifadə olunan informasiya sistemlərində rolların və funksiyaların birmənalı şəkildə bölüşdürülməsi, antivirus proqramlarının olması, server sistemi idarəsi, serverdə ehtiyat nüsxə sistemi, serverlərə girişin məhdudlaşdırılması və s. ilə təmin edilir.

**İctimaiyyət üçün məlumat.** Universitet öz fəaliyyəti, o cümlədən təhsil proqramlarının həyata keçirilməsi barədə ictimaiyyətə təqdim etdiyi aydın, dəqiq, aktual, obyektiv və əlçatan məlumatları dərc edir. Universitetin məlumat siyasəti KİV və sosial şəbəkələrdə mühüm hadisələr, nailiyyətlər barədə xəbərlərin sabit axınının təmin edilməsi, yeni təhsil proqramlarının təşviqi, milli inkişaf proqramlarının dəstəklənməsi və s. yönəlib.

Məlumat siyasətinin həyata keçirilməsini ictimaiyyətlə əlaqələr üzrə Mətbuat katibi təmin edir, onun funksiyalarına bu sahədə prioritet istiqamətlərin müəyyən edilməsi, Universitetin fə-

aliyyəti haqqında KİV-də və sosial şəbəkələrdə məlumatların tamlığının və etibarlılığının təmin edilməsi və s. daxildir.

Universitet www.admiu.edu.az rəsmi internet saytı və respublika KİV-i vasitəsilə öz fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılmasını təmin edir. Saytdakı məlumatlar daim yenilənir və müxtəlif istifadəçi qruplarına: abituriyentlərə, tələbələrə, professor-müəllim heyətinə və digər maraqlı şəxslərə yönəlib. Elmi tədqiqatların nəticələrinin dərci azərbaycan, rus, ingilis dillərində çap olunan "ADMİU-nun Elmi əsərləri" elmi-nəzəri məcmuəsi və "Mədəniyyət dünyası" elmi-nəzəri jurnalının (rəqəmsal axtarış sistemi "Crossref"də qeydiyyatdan keçərək 10.52094 nömrəli DOI (Dijital Object İdentifier) alıb) nəşri ilə təmin edilir.

**Proqramların daimi monitorinqinin aparılması və vaxtaşırı yoxlanılması.** Universitet tələbələrin və cəmiyyətin ehtiyaclarını ödəməyə yönəlmiş təhsil proqramlarının səmərəli həyata keçirilməsini təmin etmək və əlverişli tədris mühitinin yaradılması məqsədilə onların daimi monitorinqi, dövri qiymətləndirilməsi və yenidən baxılması prosedurlarını müəyyən edir və ardıcıl surətdə tətbiq edir.

Təhsil proqramlarının davamlı təkmilləşdirilməsi üçün tələbələr, işəgötürənlər və digər maraqlı tərəflərin (steykholderlər) proqramların qiymətləndirilməsində və nəzərdən keçirilməsində iştirakı təmin edilir. Universitet təhsil proqramlarının monitorinqi, təhlili və onlara yenidən baxılması qaydasını müəyyən edib. Bu prosedurların əsasında yeni təhsil proqramlarının təsdiqi, sorğu və ya birgə tədbirlərin nəticələrinə əsasən işəgötürənlərin təklifləri, attestasiya komissiyalarının tövsiyələri və s. durur.

Təhsil proqramlarının təkmilləşdirilməsinə aşağıdakı prosedurlar daxildir: Universitet rəhbərliyi, Elmi Şurası, Keyfiyyət tə-

minatı Komissiyası səviyyəsində metodiki təminatın illik ekspertizası; maraqlı tərəflərin rəyləri nəzərə alınmaqla təhsil proqramlarının və seçmə fənlər Kataloqunun illik təhlili və yenilənməsi; Keyfiyyət təminatı və strateli planlama Departamenti səviyyəsində təhsil proqramlarının monitorinqi.

Maraqlı tərəflər tərəfindən təhsil proqramının keyfiyyətinin qiymətləndirilməsinə aşağıdakılar daxildir: hər tədris mərhələsindən sonra təhsil proqramının həyata keçirilməsində iştirak edən professor-müəllim heyətinin fəaliyyətinin tələbələr tərəfindən qiymətləndirilməsi; təhsil proqramının keyfiyyəti, öyrənmə mühiti və dəstək xidmətləri üzrə məzunlar arasında illik sorğu; məzunların hazırlığının keyfiyyətinə dair işəgötürənlər arasında sorğu; məşğulluq nəticələrinin illik toplanması və təhlili, məzunların karyera artımının təhlili.

Tələbələrin akademik nəticələrinin qiymətləndirilməsi aşağıdakılar vasitəsilə həyata keçirilir: aralıq yoxlamalarından sonra akademik nailiyyətlər haqqında məlumatların toplanması və təhlili; aralıq, cari və yekun attestasiyanın nəticələrinin təhlili; kollegial orqanların iclaslarında akademik fəaliyyətin nəticələrinə baxılması; Attestasiya Komissiyalarının işi çərçivəsində tələbələrin hazırlığının keyfiyyətinin təhlili.

**Dövri olaraq xarici keyfiyyət təminatı.** Universitet vaxtaşırı daxili keyfiyyət təminatının səmərəliliyini qiymətləndirmək məqsədilə müxtəlif formalarda xarici keyfiyyət təminatı prosedurlarından keçir. Bu da öz növbəsində keyfiyyət təminatının təkmilləşdirilməsi üçün katalizator rolunu oynamaqla yanaşı, universitetin fəaliyyətinin keyfiyyəti haqqında ictimaiyyətə məlumat verməyə imkan verir. Universitetin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla keçirilən xarici keyfiyyət təminatı sistemi müxtəlif formalarda hə-

yata keçirilə və müxtəlif təşkilati səviyyələrdə aparıla bilər. Xarici keyfiyyət təminatı davamlı səciyyə daşıdığından əvvəlki prosesinin nəticələri nəzərə almalıdır.

Universitet Strateji inkişaf planını və Keyfiyyət təminatı siyasətini həyata keçirərkən tədrisin keyfiyyətini, göstərdiyi fəaliyyətlərin və xidmətlərin cəmiyyətin və qlobal çağırışların tələblərinə uyğunluğunu, özünün güclü və zəif tərəflərinin müəyyənləşdirilməsini, mövcud problemlərinin üzə çıxarılmasını, ehtiyacların müvafiq göstəricilər sistemi əsasında təhlil edilməsini və qiymətləndirilməsini özündə ehtiva edən "Özünütəhlil və qiymətləndirmə" hesabatını dövri olaraq həyata keçirir.

# 8. Keyfiyyət Təminatı Komissiyasının Əsasnaməsi

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXS

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Təsdiq edirəm
ADMİU-nun rektoru
_________professor C.E.Mahmudova

## KEYFİYYƏT TƏMİNATI KOMİSSİYASININ

## ƏSASNAMƏSİ

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
_12_ sentyabr 2023-cü il tarixli iclasının
___01___№-li protokolu ilə təsdiq edilmişdir

Bakı - 2023

**Ümumi müddəalar:**

Keyfiyyətin təminatının həyata keçirilməsi prosesi – daxili və xarici qiymətləndirmə prosedurlarını ehtiva edir. Ali təhsil müəssisəsində müvafiq prosedurların icrası tədrisin, yaradıcı fəaliyyətin və tədqiqatların keyfiyyətinin yüksəldilməsinə təkan verir. Təhsil, elm, yaradıcılıq, idarəetmə və s. sahələrdə keyfiyyət göstəricilərini daha da yüksəltmək istiqamətində işlərin səmərəliliyini artırmaq məqsədilə Universitetdə ictimai əsaslarla fəaliyyət göstərəcək, hər tədris ilində yenidən təşkil olunan Keyfiyyət Təminatı Komissiyası (KTK) yaradılır. Keyfiyyət təminatı və strateji planlama Departamenti KTK ilə birlikdə universitetin bütün struktur bölmələrində keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi, keyfiyyətə nəzarət mexanizminin qurulması və təkmilləşdirilməsi, mövcud fəaliyyət və proseslərin keyfiyyətinin ölçülməsi, tədris prosesinin monitorinqi və keyfiyyətinin qiymətləndirilməsini həyata keçirəcək.

Keyfiyyət Təminatı Komissiyası keyfiyyət təminatı mexanizmininin təkmilləşdirilməsi, universitetdaxili strukturların daha məqsədyönlü və səmərəli fəaliyyətinə dair təhlil və qiymətləndirmənin aparılması, universitetin fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanmasında iştirak, Akkreditasiya prosesinə hazırlığın təmin edilməsi, Strateji İnkişaf Planının icrasının monitorinqi ilə bağlı təkliflər verir.

**Maddə 1.**

1. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra – Universitet) Keyfiyyət Təminatı Komissiyası (bundan sonra – Komissiya) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Təhsil haqqında”, “Elm haqqında” Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbay-

can Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin əmr və təlimatlarını, digər müvafiq qanunvericilik aktlarını, təhsil, elm və innovasiyalar, inzibati-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ hüquqi aktları, Universitetin Nizamnaməsini, Strateji İnkişaf Planını və Elmi Şurasının qərarlarını, rektorun əmrlərini, Keyfiyyət təminatı və strateji planlama Departamentinin Əsasnaməsini və bu Əsasnaməni rəhbər tutur.

1.1 Komissiya öz fəaliyyətində müvafiq profilli Avropa assosiasiyaları və institutları, habelə "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ı (ESG) və Bolonya prosesi çərçivəsində digər rəsmi qurumların himayəsi altında hazırlanmış tövsiyə sənədlərini nəzərə alır.

1.2 Keyfiyyət təminatı və strateji planlama Departamentinin təqdimatı ilə Komissiyanın Əsasnaməsi Universitetin Elmi Şurasında müzakirə edilərək Elmi Şuranın sədri tərəfindən təsdiq edilir.

**Maddə 2. Komissiyanın əhatə dairəsi, əsas vəzifələri və funksiyaları.**

*2.1 Komissiyanın fəaliyyət dairəsinə aşağıdakı əsas vəzifələr daxildir:*

Universitetdə tədrisin, yaradıcı fəaliyyətin və tədqiqatların keyfiyyətinin yüksəldilməsinin təşviqi, onların qiymətləndirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə tövsiyələrin hazırlanması;

*2.2 Komissiyanın funksiyaları:*

2.2.1 Bu Əsasnamə ilə müəyyən olunan vəzifələrin icrasını təmin etmək;

2.2.2 Universitetin daxili keyfiyyət təminatı sistemi üzrə Fəaliyyət Planının Strateji İnkişaf Planındakı hədəflərə uyğun-

luğu vəziyyətinin nəzərdən keçirilməsinə və icrasına, eləcə də keyfiyyət mədəniyyətinin təmin olunmasına dəstək olacaq işləri həyata keçirmək;

2.2.3 Dövlət standartlarının tətbiqinə, tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə, eləcə də institusional və proqram akkreditasiyası üzrə özünütəhlil nəticələri haqqında hesabatın hazırlanmasına bilavasitə nəzarət etmək;

2.2.4 Təhsildə keyfiyyətin artırılmasına dair təklifləri Komissiyanın sədri və Keyfiyyət təminatı və strateji planlama Departamentinə müzakirə üçün təqdim etmək;

2.2.5 Keyfiyyətin təmin edilməsi üzrə universitet siyasətinin, keyfiyyətin təminatı mexanizmləri və prosedurlarının, tədris, yaradıcı fəaliyyətin və elmi tədqiqatların qiymətləndirilməsi qaydalarının işlənib hazırlanması;

2.2.6 Struktur bölmələrin fəaliyyətinin keyfiyyət baxımından qiymətləndirilməsinin nəticələrinin müzakirəsi və hesabatların hazırlanması;

2.2.7 Bakalavr, magistratura, doktorantura səviyyələrində, sertifikatlı kurslar daxil olmaqla təhsil proqramlarının təkmilləşdirilməsi məqsədi ilə təhsil proqramlarına dair tövsiyələrin verilməsi;

2.2.8 Kənar qiymətləndirməni həyata keçirən səlahiyyətli qurumlar tərəfindən təhsil proqramlarının monitorinqi və akademik ekspertiza nəticəsində alınmış tövsiyələr əsasında təhsil proqramlarının daha da təkmilləşdirilməsi məqsədi ilə həyata keçirilməli tədbirlərə dair Elmi Şuraya təkliflər hazırlamaq;

2.2.9 Tələbələr, inzibati, akademik, tədris-köməkçi heyət və digər əməkdaşlar, həmçinin məzunlar və potensial işəgötürənlər arasında keçirilmiş sorğuların nəticələrinin təhlili

əsasında aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələrin işlənib hazırlanması;

2.2.10 Təhsil proqramlarının akkreditasiya standartlarına uyğunluğunun müəyyən edilməsi prosesində iştirak;

2.2.11 Strukturlararası kommunikasiyanın səmərəliliyini qiymətləndirmək və təkliflər vermək;

2.2.12 Universitetin maddi-texniki bazasının standartlara uyğunluğunun müəyyən edilməsi və onunla bağlı tövsiyələr vermək;

2.2.13 Tələbə dəstək xidmətlərinin (tibbi, tyutor xidməti, yataqxana, yeməkxana və digər xidmətlər) səmərəliliyini qiymətləndirmək və təkliflər vermək;

2.2.14 Öz səlahiyyətləri daxilində Universitetin nizamnaməsi, rektorun hüquqi aktları, Elmi Şuranın qərarları ilə müəyyən edilmiş digər tapşırıqları həyata keçirmək.

**Maddə 3. Komissiyanın strukturu və rəhbərlik.**

3.1 Komissiya tələbəyönümlü tədris mühitinin dəstəklənməsi, tədris-metodiki işin məzmun, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələrin işlənməsi üçün səlahiyyətləri olan müvəqqəti kollegial orqandır.

3.2 Komissiya universitetin müxtəlif strukturlarını təmsil edən təcrübəli professor-müəllim heyətindən, əməkdaşlardan, tələbə və məzunlardan, eləcə də əmək bazarı nümayəndələrindən təşkil olunmalıdur.

3.3 Komissiyanın tərkibində olan dəyişikliklər Keyfiyyət təminatı və strateji planlama Departamentinin təqdimatı əsasında rektor tərəfindən təsdiq edilir.

3.4 Komissiya fəaliyyəti barədə rektor və Universitet Elmi Şurası qarşısında hesabat verir.

3.5 Sədr, sədr müavini və katib üzvlər sırasından Komissiyanın ilk iclasında açıq səsvermə yolu ilə seçilir.
3.6 Komissiya vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini universitetin digər struktur bölmələri ilə qarşılıqlı əlaqə şəklində qurur.
3.7 Komissiya müəyyən işləri yerinə yetirmək üçün müvafiq struktur bölmələrini və digər maraqlı tərəfləri bu tədbirlərin həyata keçirilməsinə cəlb edə bilər.
3.8 Komissiyanın sədri müvəqqəti olmadıqda (məzuniyyət, ezamiyyət, xəstəliklə əlaqədar) onun vəzifə borcunu sədr müavini yerinə yetirir;
3.9 Komissiyanın sədri KTK-nın fəaliyyətini Universitetin Nizamnaməsinə, Keyfiyyət təminatı və strateji planlama Departamentinin Əsasnaməsinə və bu Əsasnaməyə uyğun təşkil edir; ona həvalə edilmiş hüquq və vəzifələrin həyata keçirilməsində KTK-nı təmsil edir; Komissiyaya həvalə edilmiş funksiya və vəzifələrin yerinə yetirilməsində rektor və Elmi Şura qarşısında cavabdehdir;
3.10 Sədr üzvlər arasında iş bölgüsü aparır, komissiyanın fəaliyyət planının işlənib hazırlanmasını və həyata keçirilməsini təmin edir;
3.11 Komissiyanın iclasları hər tədris ilində iki dəfədən az olmayaraq, həmçinin zərurət yarandıqda sədr və ya üzvlərin təqdimatı ilə növbədənkənar keçirilə bilər;
3.12 Komissiya üzvlərinin 2/3-nin iştirakı təmin olunduqda iclaslar səlahiyyətli hesab olunur və protokollaşdırılır.
3.13 Qərarlar açıq səsvermə və səs çoxluğu ilə qəbul olunur.

**Maddə 4. Yenidən təşkil və ləğvetmə.**

Komissiyanın yenidən təşkili və ləğvi Keyfiyyət təminatı və strateji planlama Departamentinin təqdimatına əsasən Elmi Şuranın qərarı və rektorun müvafiq əmri ilə həyata keçirilir.

**Maddə 5. Əsasnaməyə əlavə və dəyişikliklərin edilməsi qaydası.**

Əsasnamə Universitet Elmi Şurasının qərarına əsasən rektor tərəfindən əmrləşdirilir. Keyfiyyət təminatı və strateji planlama Departamentinin təqdimatına əsasən Elmi Şuranın qərarı ilə Əsasnaməyə əlavə və dəyişikliklər edilə bilər. Azərbaycan Respublikasının qanunvericiliyi, Universitet Nizamnaməsi ilə bu Əsasnamənin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdir.

# 9. Keyfiyyət təminatı və strateji planlama departamentinin Əsasnaməsi

"TƏSDİQ EDİRƏM"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru

Rektor prof. Ceyran Mahmudova

27 oktyabr 2022-ci il

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

**KEYFİYYƏT TƏMİNATI VƏ STRATEJİ PLANLAMA DEPARTAMENTİNİN ƏSASNAMƏSİ**

Bakı – 2022

**1. Ümumi müddəalar**

1.1 Keyfiyyət Təminatı və Strateji Planlama Departamenti (bundan sonra – Departament adlandırılacaq) ali təhsil müəssisəsində (bundan sonra – Universitet adlandırılacaq) tədrisin və dəstək xidmətlərinin keyfiyyətinin planlaşdırılması, nəzarəti və davamlı inkişaf funksiyalarını icra edən tələbəyönümlü tədris mühitinin dəstəklənməsi, tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələrin işlənməsi, tədris prosesi ilə bağlı metodiki material-ların keyfiyyətinə, dövlət standartlarının tətbiqinə, eləcə də əla-qəli digər proseslərə nəzarət funksiyalarını yerinə yetirən, bir-başa rektora tabe olan funksional struktur vahididir.

1.2 Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin əmr, təlimat və Kollegiya Qərarlarını, digər müvafiq qanunvericilik aktlarını, Ali Təhsil Müəssisəsinin Nizamnaməsini, Elmi Şuranın qərarlarını, təhsil, elm və innovasiyalar, inzibat-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ-hüquqi aktları, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ı (ESG), rektorun əmrlərini və bu Əsasnaməni rəhbər tutur.

**2. Departamentin strukturu**

2.1 Departamentin ştatını ADMİU-nun Rektoru təsdiq edir.

2.2 Departamentə rəhbərliyi onun müdiri həyata keçirir və bilavasitə ADMİU Rektoruna tabedir.

2.3 Departament müdiri departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

2.4 Departamentin müdiri ali təhsilli, tədris sahəsində iş təcrübəsinə malik olmalıdır.

2.5 Departamentin müdiri ADMİU-nun işə qəbul proseduruna müvafiq olaraq Rektor tərəfindən vəzifəyə təyin olunur.

2.6 Departament işçiləri ADMİU-nun işə qəbul və işdən azad etmə proseduruna uyğun olaraq Rektor tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

2.7 Departament əməkdaşlarının vəzifələri bu Əsasnaməyə, vəzifə təlimatlarına, həmçinin ADMİU-nun qarşısında qoyulan vəzifələrə uyğun olaraq bölüşdürülür.

**3. Departamentin əsas funksiyaları**

3.1 Universitetin keyfiyyət təminatına və inkişafına yönəlmiş strategiyaların, siyasət və prosedurların formalaşdırılmasına, nəzərdən keçirilməsinə və icrasına, eləcə də keyfiyyət mədəniyyətinin təmin olunmasına birbaşa rəhbərliyi həyata keçirir;

3.2 Universitetin strateji planına uyğun olaraq, Strukturun əsas funksiyaları və sahələri daxilində keyfiyyətlə əlaqəli inkişafı təşviq edir;

3.3 Keyfiyyət siyasəti, prosedurları və standartları, daxili və xarici maraqlı tərəflərlə əlaqələndirməni təmin edir;

3.4 Tədrisin müəyyən olunmuş qaydalar çərçivəsində təşkilini diqqətdə saxlayır, tədris-proqram sənədlərinin (fənn proqramı və sillabuslar) və metodiki materialların (tədris materialları) keyfiyyətinə və tədris prosesinin gedişatına (monitorinq) nəzarət edir. Fənlərin mənimsənilməsi səviyyəsi ilə bağlı təhlillər aparaq, rəhbərliyə biliyin qiymətləndirilməsi meyarları və formalarına dair təkliflər verir;

3.5 Keyfiyyət siyasəti əsasında fəaliyyət planı hazırlayır, hazırlanmış fəaliyyət planının icrasına nəzarət edir, digər struktur bölmələrin fəaliyyətinin keyfiyyət nöqteyi-nəzərindən qiymətləndirilməsi metodologiyasını, meyarlarını müəyyənləşdirir, müəyyən olunmuş metodologiya və meyarlar əsasında qiymətləndirilməni həyata keçirir;

3.6 Universitetdə tədris prosesinin təşkili, tədqiqat və innovasiya mühiti, mövcud problemlər, onların həlli yolları ilə bağlı akademik heyət arasında məmnuniyyət sorğuları keçirir, nəticələri analiz edərək aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər paketi hazırlayır və icrasına nəzarət edir;

3.7 Tədrisin keyfiyyətini qiymətləndirmək üçün tədris ili ərzində təhsil alanlar və məzunlar arasında müxtəlif mövzularda sorğular keçirir, nəticələri analiz edərək aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr verir və onların icrasına nəzarət edir;

3.8 Təhsil proqramlarının icrasının keyfiyyətini öncədən hazırlanmış meyarlar əsasında qiymətləndirir;

3.9 Tələbə dəstək xidmətlərinin keyfiyyətini qiymətləndirir və səmərəliliyinin artırılması üçün təkliflər verir;

3.10 Akademik heyətin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi, tədris, elm və yaradıcılıq işləri arasında əlaqələrin gücləndirilməsinə yönəlmiş elmi-yaradıcılıq fəaliyyətin həvəsləndirilməsi, tədrisdə innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadənin stimullaşdırılması üçün təkliflər hazırlayır;

3.11 Tədrisin keyfiyyətinin, eyni zamanda digər struktur bölmələrin keyfiyyət göstəricilərinin yüksəldilməsi, inkişaf konsepsiyalarının həyata keçirilməsi, strateji hədəflərin icrası üçün

hesabatlılığın təmin olunması üzrə rektor və Elmi Şuraya təkliflər verir;

3.12 Universitetdə strukturlararası kommunikasiyanın səmərəliliyini qiymətləndirir və səmərəliliyinin artırılması üçün təkliflər verir;

3.13 Ali təhsil pilləsi üzrə institusional və proqram akkreditasiya meyarları əsasında şöbələrin hesabatlılığının formalaşmasına rəhbərlik edir;

3.14 İnstitusional və ya proqram akkreditasiya qiymətləndirilməsi zamanı Təşkilat Komissiyasının fəaliyyətinə və özünütəhlilin aparılması prosesinə nəzarət edir;

3.15 Akkreditasiya nəticəsi olaraq hazırlanan Yekun Hesabatda qeyd olunan çatışmazlıqların aradan qaldırılmasına və tövsiyələrin icrası vəziyyətinə nəzarət edir;

3.16 Universitetin fəaliyyət istiqamətlərinə uyğun olaraq illik əsasda keyfiyyətin təminatı ilə əlaqədar müvafiq təhlillər (GZİT, PESTEL, OKR və s.) aparır;

3.17 Keyfiyyət təminatı sahəsində olan beynəlxalq və yerli təcrübəni öyrənir və Universitetdə icrasına dair fəaliyyət planları hazırlayaraq icrasına nəzarət edir;

3.18 Tədris materiallarının Universitetin elektron platformalarında və kitabxanasında (eləcə də, elektron kitabxanada) yerləşdirilməsi vəziyyətinə nəzarət edir;

3.19 Tədrisin keyfiyyətinin təminatı və artırılmasına dair tədbirləri (təlimlər, seminarlar, dəyirmi masa müzakirələri və s.) təşkil edir;

3.20 Akademik dürüstlüyün təşviqi, akademik müstəqilliyin qorunması üçün tədbirlər görür və plagiat hallarına qarşı mübarizə fəaliyyətlərinin səmərəliliyini qiymətləndirir;

3.21 Öz fəaliyyəti və ya keçirilmiş sorğular əsasında analitik materiallar hazırlayır;

3.22 Keyfiyyət təminatı prosesinə fakültələr və digər maraqlı tərəflərin cəlb olunmasını təmin edir;

3.23 Keyfiyyət təminatı prosesində fakültələr daxilində komissiyaların yaradılmasını və həmin komissiyalarda inzibati, akademik heyət və tələbələrdən ibarət nümayəndələrin təmsil olunmasını təmin edir;

3.24 Daxili özünütəhlil və qiymətləndirməyə əsasən aşkarlanan aradan qaldırılması ilə əlaqədar təkliflərin hazırlanmasına rəhbərlik edir, nəticələrə dair rektora və Elmi Şuraya hesabat verir;

3.25 Təhsil pillələri üzrə (magistr, bakalavr, doktorantura) kvalifikasiyalara uyğun yerli və xarici tələbələrin cəlb olunması;

3.26 Universitetin tədris etdiyi sahələrin müxtəlifliyinin artırılması üçün təkliflər verir;

3.27 Universitetin əldə etdiyi keyfiyyət səviyyəsini milli və beynəlxalq keyfiyyət təminatı standartları ilə müqayisə edir, əldə edilən nəticələr əsasında universitetin fəaliyyətinin davamlı olaraq təkmilləşdirilməsini təmin edir;

3.28 Tələbə mərkəzli tədris fəaliyyətini həyata keçirən akademik və inzibati heyətin peşəkar və pedaqoji səriştələrinin inkişafına dəstək üçün təkliflər verir;

3.29 Yeni tədris metodlarından, müasir təhsil və təlim texnologiyalarından istifadəni təşviq edir;

3.30 Universitetdə təhsil alan əcnəbi tələbələrin sayının, keyfiyyətinin artırılmasını, həmçinin coğrafi arealın genişlənməsini təmin edir;

3.31 Universitetin tələbə və müəllim heyətinin beynəlxalq mübadilə proqramlarında iştirakına dair təkliflər verir;

3.32 İkili diplom proqramlarının və beynəlxalq dərəcəli təhsil proqramlarının sayının və keyfiyyətinin artırılmasını təmin edir;

3.33 Nüfuzlu milli və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən tədqiqat və təkmilləşdirmə layihələrində universitetin akademik və tələbə heyətinin iştirakını təşviq və təşkil edir;

3.34 Tədqiqat və təkmilləşdirmə fəaliyyəti nəticəsində formalaşan elmi və yaradıcılıq işlərinin, məqalələrin, əsər, model və patentlərin sayının artırılmasını təşviq edir;

3.35 Universitetin yüksək impakt faktorlu ISI, SCOPUS, Web of Science, Springer, Ulakbim, Philosopher`s İndex, ERİH PLUS və və digər məlumat bazaları tərəfindən indekslənən beynəlxalq elmi jurnallardakı nəşrlərinin və istinadlarının sayının artırılmasını təmin edir;

3.36 Milli və beynəlxalq universitet reytinqlərində universitetin mövqeyinin davamlı olaraq artırılmasını təşkil edir;

3.37 İctimai xidmət fəaliyyətinin keyfiyyət və kəmiyyət baxımından artırılması və universitetin bütün maraqlı tərəfləri arasında uzunmüddətli sosial məsuliyyət təfəkkürünün yayılmasını təşviq edir;

3.38 Xarici maraqlı tərəflər (məzunlar, iş dünyası və d.) ilə effektiv əlaqələrin qurulmasına dəstək verəcək keyfiyyət yönümlü inzibati tədbirləri planlayır və həyata keçirir;

3.39 Universitetin cari idarəetmə və qərar qəbuletmə proseslərini strateji idarəetmə prinsipləri ilə əlaqələndirərək onun yaxşı idarəetmə prinsipləri (ardıcıllıq, məsuliyyət, hesabatlılıq, ədalətlilik, sağlam rəqabət, şəffaflıq, səmərəlilik və qanunlara riayət) çərçivəsində daha effektiv hala gətirilməsini təşkil edir;

3.40 Elm, mədəniyyət və incəsənətin sərhədlərini genişləndirən, sosial inkişafa rəhbərlik edən, inzibati işçilərin,

akademik heyət və tələbələrin eyni dəyərlər ətrafında birləşdiyi beynəlxalq universitet imicinin yaradılmasını təşviq və təşkil edir.

3.41 Rektor tərəfindən Struktura həvalə edilmiş bu Əsasnamə ilə müəyyən olunmuş səlahiyyətləri daxilində digər funksiyaları həyata keçirir.

**4. Departamentin hüquqları**

4.1 Vəzifə və funksiyaların yerinə yetirilməsi üçün zəruri olan informasiya və sənədləri müvafiq struktur(lar)dan tələb etmək;

4.2 Strukturun Əsasnaməsini rəhbər tutaraq, struktur bölmələrindən vəzifə borclarının yerinə yetirilməsinə köməyin göstərilməsini tələb etmək;

4.3 Struktur bölmə rəhbərlərindən işlərin (xidmətlərin) keyfiyyətinin artırılmasına istiqamətlənmiş tədbirlərin görülməsini tələb etmək;

4.4 Müvafiq struktur bölmələri və digər maraqlı tərəfləri keyfiyyətin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsinə cəlb etmək;

4.5 Yaranmış zərurətlə əlaqədar olaraq iş yerlərinə, auditoriya və laboratoriyalara maneəsiz daxil olmaq, nəzarət və qiymətləndirmə tədbirlərini həyata keçirmək;

4.6 Fəaliyyətinin qiymətləndirilməsi zamanı nöqsanlar aşkarlanmış əməkdaşlar barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün rektor qarşısında məsələ qaldırmaq;

4.7 Təhsildə keyfiyyətin artırılmasına dair təklifləri rektora və Elmi Şuraya müzakirə üçün təqdim etmək;

4.8 Monitorinq və sorğular aparmaq və hazırlanmış analitik təhlil hesabatlarını dərc etmək;

4.9 Fəaliyyət istiqamətlərinə uyğun olaraq Elmi Şura qərarı əsasında müxtəlif tərkibdən ibarət komissiyalar qurmaq və onların fəaliyyətinə nəzarət etmək;

4.10 Universitetin struktur bölmələrininin fəaliyyəti ilə əlaqədar məsələlərin müzakirəsində iştirak etmək;

4.11 Səlahiyyətləri çərçivəsində xidməti yazışmalar aparmaq.

**5. Hesabatlılıq**

5.1. Departament öz fəaliyyəti barədə hesabatı ADMİU Rektoruna və zəruri hallarda Elmi Şuraya təqdim edir.

**6. Departamentin fəaliyyətinin təşkili**

6.1 Struktur rəhbəri bu Əsasnamə ilə müəyyən olunan vəzifələrin icrasını təmin edir;

6.2 Struktur rəhbəri və işçilərinin vəzifə və hüquqları bu Əsasnaməyə istinadən rektor tərəfindən təsdiqlənən vəzifə təlimatları əsasında müəyyən olunur;

6.3 Struktur vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini Universitetin digər struktur bölmələri, habelə Universitetin nəzdində olan təşkilatlar ilə qarşılıqlı əlaqədə qurur.

**7. Yekun müddəalar**

7.1 Bu Əsasnamə Universitetin Elmi Şurasının qərarı ilə Rektor tərəfindən təsdiq edilir;

7.2 Bu Əsasnaməyə əlavə və dəyişikliklər Universitetin Elmi Şurasının qərarı ilə edilir;

7.3 Azərbaycan Respublikasının qanunvericiliyi, Universitetin Nizamnaməsi ilə bu Əsasnamənin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər;

7.4 Azərbaycan Respublikasının qanunvericiliyinə dəyişiklik edilməsi nəticəsində bu Əsasnamənin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.

Çapa imzalanıb: 29.12.2025
Format: 60x84 1/8.  Qarnitur: Times.
Həcmi: 8.5 ç.v.

**ADMİU-nun mətbəəsində çap edilmişdir**

**Ünvan:** Bakı şəhəri, Zərdabi 39a
**Telefon:** (+994 12) 434-50-04